Xalqın qəzeti!

# Xalq qəzeti

№ 120 (30814) 13 iyun 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Ərzaq təhlükəsizliyi dövlət siyasətinin üstün hədəfidir

*Prezident İlham Əliyev Bakıda qəlyanaltı məhsulları istehsalı zavodunun açılışında*




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Əhməd Gözəl müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdilər.

"Azərsun Holdinq"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - popkorn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur.

(ardı 2-ci səhifədə)

## Sosial siyasətin ünvanı xalqın yüksək güzəranıdır



*Növbəti islahat paketi müavinət və təqaüdlərin də artımını əhatə edir*

**Prezident İlham Əliyevin imzaladığı 12 iyun 2025-ci il tarixli fərman (qəzetin 2-ci səhifəsində dərc olunub) bu ilin əvvəlindən reallaşdırılan növbəti, son 7 ildə isə 5-ci sosial islahat paketi çərçivəsində şəhid ailələri, əlilliyi olan şəxslər, 5-dən çox uşağı olan qadınlar, aztəminatlı ailələr və digər kateqoriyalara yönələn müavinət və təqaüdlərin də artırılmasını gerçəkləşdirir.**

(ardı 3-cü səhifədə)

## Ulu öndərin xilaskarlıq missiyası



Səhifə ⇨ 5

## Aİ-dən Ermənistana "Çörək və tamaşa"



Səhifə ⇨ 4

## Taxıl mövsümü başlanıb



Səhifə ⇨ 8

## Kilsə kövrək sülhü pozanların yanında durmamalıdır

*Haylar dini siyasi təzyiq vasitəsinə çevirmək cəhdlərindən əl çəkmək istəmirlər*



**Hayların sülhə son dirənişlərini müşahidə etməkdəyik. Bu zaman erməni lobbisi, diaspor təşkilatları Azərbaycana siyasi-ideoloji təzyiq göstərməkdən ötrü ən müxtəlif üsullardan, o cümlədən xristianların dini hisslərindən belə yararlanmağa çalışırlar. Onların məqsədi dünya xaçpərəstlərinin dini duyğularını "əzabkeş ermənilərin" üzərinə yönəltməkdir. Avropada, ABŞ-da güclü maliyyə dayaqlarına malik erməni diasporunun "yemlədiyi" bəzi media vasitələrinin Azərbaycana qarşı qərəzli mövqe tutduqlarını, ara-sıra "informasiya hücumu" təşkil etdiklərini bilirik və bu barədə kifayət qədər yazmışıq. Bu anti–Azərbaycan düşərgəyə qoşulanların sırasında nüfuzlu nəşrlər, reytinqli telekanallarla yanaşı, konkret qurumlar, "beyin mərkəzləri", hətta dini konfessiyalar da var.**

(ardı 4-cü səhifədə)

## Ermənistanın mina cinayətləri məhkəmədə açıqlanıb



Səhifə ⇨ 7

## Dünyanı dolaşan səsin xatirə ocağı



Səhifə ⇨ 11

# Ərzaq təhlükəsizliyi dövlət siyasətinin üstün hədəfidir

## *Prezident İlham Əliyev Bakıda qəlyanaltı məhsulları istehsalı zavodunun açılışında*




**(əvvəli 1-ci səhifədə)**

İllik istehsal həcmi 9,6 min ton olan zavodda dünyanın aparıcı ölkələrinin müasir avadanlıqları quraşdırılıb. İstehsalatda istifadə ediləcək günəbaxan, badam, fındıq kimi məhsullar yerli xammal hesabına təmin olunacaq. Ümumi sahəsi 7 hektardan çox olan müəssisədə 210 nəfər daimi işlə təmin ediləcək. Zavodun ümumi investisiya dəyəri 38 milyon manat təşkil edir ki, bunun da 5 milyon manatı Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Qeyd edək ki, Azərbaycanda istehsal, o cümlədən emal müəssisələrinin qurulması, onların fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi, rəqabətədavamlı məhsulun istehsalı və çeşidinin genişləndirilməsi,







ümumilikdə, ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Yerli xammal əsasında istehsalın genişləndirilməsi isə daxili bazarın sabit saxlanılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına da xidmət edir, ixrac potensialını daha da artırır.

Bütün bunlar “Made in Azerbaijan” brendi ilə məhsulların xarici bazarlara çıxarılması məsələsində olduqca mühüm əhəmiyyət kəsb edir. Bu yeni zavodun yaradılması ölkəmizdə sahibkarlığın təşviqi, ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunun göstəricisidir.

***AZƏRTAC***

## Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin “Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər” mövzusunda ikinci iclasının iştirakçılarına

**Hörmətli iclas iştirakçıları!**

Sizi Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin “Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər” mövzusunda Bakı şəhərində keçirilən ikinci iclasının öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə ən xoş arzularımı yetirirəm.

Zəngin ortaq tarixi-mədəni köklərə malik türk xalqlarının həyatında ailə həmişə sosial nizamın bünövrəsini təşkil etmişdir. Bütün şanlı keçmişimiz boyunca qadınlar həm ailənin mənəvi dayağı olmuş, həm Vətənin müdafiəsini özlərinin müqəddəs vəzifəsi bilmiş, həm də yüksək ictimai mövqelər qazanaraq cəmiyyətin tərəqqisinə töhfə vermişlər. Müştərək əxlaqi sərvətlər xəzinəmizin yaşadılmasında onların müstəsna xidməti vardır.

Hazırkı qlobal çağırışlar dövründə Türk Dövlətləri Təşkilatı miqyasında ailə məsələləri və sosial siyasət sahəsində əlaqələrin dərinləşdirilməsi ölkələrimizdə ailə institutunun qorunması və gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır, ənənəvi dəyərlərlə uzlaşan dayanıqlı inkişaf və inklüzivlik yolunda yeni imkanlar açır.

Azərbaycan dövləti qadınların hüquqlarının təmin olunması və onların cəmiyyətdə rolunun genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Ölkəmizdə qadınlar öz mədəni-elmi potensialları ilə ictimai-siyasi proseslərdə yaxından iştirak edir, dövlət qurumlarında layiqincə təmsil olunurlar.

Əminəm ki, iclas zamanı ən aktual məsələlər ətrafında aparacağınız dolğun və səmərəli fikir mübadiləsi birgə hədəflərin müəyyənləşməsi və mühüm platformaların hazırlanması üçün əlverişli zəmin yaradacaqdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2025-ci il**

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

**Hörmətli Vladimir Vladimiroviç!**

Dövlət bayramı - Rusiya Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Azərbaycan və Rusiya xalqlarını əsrlər boyu ənənəvi sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək münasibətləri birləşdirir. Bu gün həmin nəcib ənənələr dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafı və məsələlərin geniş spektri üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün etibarlı bünövrədir.

Əminəm ki, dost xalqlarımızın və ölkələrimizin maraqları naminə biz bundan sonra da Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsi, strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda çoxplanlı qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün bütün səyləri göstərəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 10 iyun 2025-ci il**

## Filippin Respublikasının Prezidenti Zati-aliləri cənab Ferdinand Romualdez Markosa

**Hörmətli cənab Prezident!**

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Filippin arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Filippin xalqına əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyun 2025-ci il**

## Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Zati-aliləri cənab Kir Starmerə

**Hörmətli cənab Baş nazir!**

Hindistanın Əhmədabad şəhəri yaxınlığında “Air India” şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində Böyük Britaniya vətəndaşları da daxil olmaqla, çoxsaylı insan tələfatı barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2025-ci il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə səmimi təbriklərimi çatdırım.

Ölkələrimiz arasında əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu, bizim daim genişlənən iqtisadi, siyasi əlaqələrimizdə özünü göstərir.

Mən Azərbaycanın Macarıstanın inkişaf etmiş strateji tərəfdaşı olmasından və enerji resurslarının Avropaya tədarükünü artıraraq ölkəmizin enerji təhlükəsizliyinə mühüm töhfə verməsindən məmnunam.

Cənab Prezident, Siz son görüşümüzdə bildirdiniz ki, Azərbaycan gələcəkdə bizi lazımi miqdarda təbii qazla təchiz edəcək və buna görə Sizə minnətdaram.

Sizi əmin etmək istərdim ki, hökumətim qarşılıqlı tərəfdaşlığımızı gücləndirməyə və yüksəksəviyyəli dialoqu davam etdirməyə sadiqdir.

Biz qəti şəkildə inanırıq ki, birgə səylərimiz ölkələrimizin inkişafına təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına Syerra-Leone Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Mən Azərbaycanın son illərdə əldə etdiyi mühüm tərəqqini, həmçinin xalqınızın gücünü və qətiyyətini yüksək dəyərləndirirəm. Daim irəliyə doğru addımlayan xalqınıza sarsılmaz birlik ruhu, davamlı əmin-amanlıq və firavanlıq diləyirəm.

Bu əlamətdar gün münasibətilə Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan Hökumətinə və xalqına isə rifahla bağlı ən xoş arzularımı bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Culius Maada BİO,***
***Syerra-Leone Respublikasının Prezidenti***

## Ş.A.Mustafayevin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahin Abdulla oğlu Mustafayev 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2025-ci il**

## Şuşa şəhərinin 2026-cı il üçün “İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il oktyabrın 5-də İran İslam Respublikasının Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2026-cı il üçün “İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı” elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşaya xüsusi ehtiramın ifadəsidir və üzv dövlətlər arasında turizm sahəsində əməkdaşlığın daha da genişlənməsində özünəməxsus rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Şuşa şəhərinin 2026-cı il üçün “İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2025-ci il**

# Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** 2025-ci il iyulun 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilsin:

1.1. orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 300 (üç yüz) manat, orqanizmin funksiyalarının 61–80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 250 (iki yüz əlli) manat, orqanizmin funksiyalarının 31–60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 180 (yüz səksən) manat;

1.2. ailə başçısını itirməyə görə 140 (yüz qırx) manat;

1.3. müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına 140 (yüz qırx) manat;

1.4. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) 140 (yüz qırx) manat;

1.5. bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşaq üçün 140 (yüz qırx) manat;

1.6. beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 140 (yüz qırx) manat;

1.7. övladlığa götürülən uşağa (18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar istisna olmaqla) görə 240 (iki yüz qırx) manat;

1.8. himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə: 0–6 yaş arası uşağa görə 500 (beş yüz) manat, 7–13 yaş arası uşağa görə 600 (altı yüz) manat, 14–18 yaş arası uşağa görə 650 (altı yüz əlli) manat;

1.9. uşağın anadan olmasına görə 600 (altı yüz) manat;

1.10. dəfn üçün 600 (altı yüz) manat.

**2.** 2025-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin aylıq məbləğləri aşağıdakı kimi müəyyən edilsin:

2.1. Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2200 (iki min iki yüz) manat;

2.2. Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün 2000 (iki min) manat;

2.3. şəhid ailəsi üçün 700 (yeddi yüz) manat;

2.4. 20 Yanvar şəhidinin ailəsi üçün 700 (yeddi yüz) manat;

2.5. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə 700 (yeddi yüz) manat;

2.6. müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə:

2.6.1. orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə – 600 (altı yüz) manat;

2.6.2. orqanizmin funksiyalarının 61–80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə – 500 (beş yüz) manat;

2.6.3. orqanizmin funksiyalarının 31–60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə – 400 (dörd yüz) manat;

2.7. orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə 120 (yüz iyirmi) manat;

2.8. ümumi səbəblərdən orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) 250 (iki yüz əlli) manat;

2.9. ümumi səbəblərdən orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə 350 (üç yüz əlli) manat.

**3.** Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği 2025-ci il iyulun 1-dən 1700 (min yeddi yüz) manat müəyyən edilsin.

**4.** Fəxri adlara görə aylıq təqaüdün məbləği 2025-ci il iyulun 1-dən xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 300 (üç yüz) manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 200 (iki yüz) manat müəyyən edilsin.

**5.** "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 329 (Cild I) 2-ci hissəsində "1500 (min beş yüz)" sözləri "1700 (min yeddi yüz)" sözləri ilə əvəz edilsin.

**6.** "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594 (Cild I) 1-ci hissəsində "1800 (min səkkiz yüz)" sözləri "2000 (iki min)" sözləri ilə əvəz edilsin.

**7.** "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 5 (Cild I) 1-ci hissəsində "600 (altı yüz)" sözləri "700 (yeddi yüz)" sözləri ilə əvəz edilsin.

**8.** "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1040 (Cild I) 1-ci hissəsində "600 (altı yüz)" sözləri "700 (yeddi yüz)" sözləri ilə əvəz edilsin.

**9.** "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 795 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddə "500 (beş yüz)" sözləri "600 (altı yüz)" sözləri ilə əvəz edilsin;

9.2. 1.2-ci bənddə "400 (dörd yüz)" sözləri "500 (beş yüz)" sözləri ilə əvəz edilsin;

9.3. 1.3-cü bənddə "330 (üç yüz otuz)" sözləri "400 (dörd yüz)" sözləri ilə əvəz edilsin.

**10.** "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.1.2-ci yarımbənd üzrə:

10.1.1. ikinci abzasda "270 (iki yüz yetmiş)" sözləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin;

10.1.2. üçüncü abzasda "220 (iki yüz iyirmi)" sözləri "250 (iki yüz əlli)" sözləri ilə əvəz edilsin;

10.1.3. dördüncü abzasda "150 (yüz əlli)" sözləri "180 (yüz səksən)" sözləri ilə əvəz edilsin;

10.2. 1.1.3-cü yarımbənd üzrə:

10.2.1. ikinci abzasda "270 (iki yüz yetmiş)" sözləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin;

10.2.2. üçüncü abzasda "220 (iki yüz iyirmi)" sözləri "250 (iki yüz əlli)" sözləri ilə əvəz edilsin;

10.2.3. dördüncü abzasda "150 (yüz əlli)" sözləri "180 (yüz səksən)" sözləri ilə əvəz edilsin;

10.3. 1.1.4-cü yarımbənd üzrə:

10.3.1. ikinci abzasda "270 (iki yüz yetmiş)" sözləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin;

10.3.2. üçüncü abzasda "220 (iki yüz iyirmi)" sözləri "250 (iki yüz əlli)" sözləri ilə əvəz edilsin;

10.3.3. dördüncü abzasda "150 (yüz əlli)" sözləri "180 (yüz səksən)" sözləri ilə əvəz edilsin;

10.4. 1.1.6-cı yarımbənddə "120 (yüz iyirmi)" sözləri "140 (yüz qırx)" sözləri ilə əvəz edilsin;

10.5. 1.1.8-ci və 1.1.9-cu yarımbəndlərdə "120" rəqəmləri "140 (yüz qırx)" sözləri ilə əvəz edilsin;

10.6. 1.1.10-cu yarımbənddə "100 (bir yüz)" sözləri "140 (yüz qırx)" sözləri ilə əvəz edilsin;

10.7. 1.1.12-ci yarımbəndin 1-ci abzasında "200" rəqəmləri "240 (iki yüz qırx)" sözləri ilə əvəz edilsin;

10.8. 1.1.13-cü yarımbəndin 2-ci abzasında "395" rəqəmləri "500 (beş yüz)" sözləri ilə, "415" rəqəmləri "600 (altı yüz)" sözləri ilə, "435" rəqəmləri "650 (altı yüz əlli)" sözləri ilə əvəz edilsin;

10.9. 1.2.2-ci və 1.2.3-cü yarımbəndlərdə "500 (beş yüz)" sözləri "600 (altı yüz)" sözləri ilə əvəz edilsin.

**11.** "Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1539 (Cild I) 1-ci hissəsində "105 (yüz beş)" sözləri "140 (yüz qırx)" sözləri ilə əvəz edilsin.

**12.** "Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 249 (Cild I) 1-ci hissəsində "200 (iki yüz)" sözləri "250 (iki yüz əlli)" sözləri ilə əvəz edilsin.

**13.** "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 244 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 962 (Cild I) 1-ci hissəsində "600 (altı yüz)" sözləri "700 (yeddi yüz)" sözləri ilə əvəz edilsin.

**14.** "Orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 643 (Cild I) 1-ci hissəsində "100 (bir yüz)" sözləri "120 (yüz iyirmi)" sözləri ilə əvəz edilsin.

**15.** "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1488 (Cild I) 1-ci hissəsində "2000 (iki min)" sözləri "2200 (iki min iki yüz)" sözləri ilə əvəz edilsin.

**16.** "Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1232 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1494 (Cild I) 1-ci hissəsində "300 (üç yüz)" sözləri "350 (üç yüz əlli)" sözləri ilə əvəz edilsin.

**17.** "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 609 (Cild I) 1-ci hissəsinin birinci abzasında "200 (iki yüz)" sözləri "300 (üç yüz)" sözləri ilə, "150 (yüz əlli)" sözləri "200 (iki yüz)" sözləri ilə əvəz edilsin.

**18.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2025-ci il**

# Sosial siyasətin ünvanı xalqın yüksək güzəranıdır

**(əvvəli 1-ci səhifədə)**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən aldığımız operativ açıqlamaya görə, 2025-ci ilin 1 iyulundan şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 700 manata çatdırılır. Müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirən zaman və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 600 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 500 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 400 manata çatdırılır.












Sənədə əsasən, Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2 min 200 manat, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2000 manat, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 1700 manat müəyyənləşdirilir.

Yeni fərmanda əsasən uşağın anadan olmasına görə birdəfəlik müavinətin 600 manata, dəfn üçün birdəfəlik müavinətin 600 manata, himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinətin 6 yaşadək 500 manata, 13 yaşadək 600 manata, 18 yaşadək arası uşaq üçün 650 manata, əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 300 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 250 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 180 manata çatdırılması nəzərdə tutulur.

Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü 350 manata, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdü 250 manata, övladlığa götürülən hər uşağa görə aylıq müavinət 240 manata, bundan başqa ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı yardım alan) hər uşağa görə aylıq müavinət 140 manata, beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət 140 manata çatdırılır.

Müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) 140 manat, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət 140 manat, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü 120 manat müəyyənləşdirilir. Fəxri adlara layiq görülmüş şəxslərə aylıq təqaüd "Xalq" fəxri adına görə 300 manata, "Əməkdar" fəxri adına görə 200 manata çatdırılır.

Qeyd edək ki, Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli müvafiq sərəncamı ilə icra olunan yeni sosial islahat paketi çərçivəsində bu ilin əvvəlindən ölkəmizdə minimum aylıq əməkhaqqı 400 manata, minimum pensiya fevralın 1-dən 320 manata çatdırılıb, həmçinin bütün növ pensiyalar ilin əvvəlindən 8,1 faiz indeksləşdirilməklə artırılıb. Ümumilikdə, qeyd edilən növbəti sosial islahat paketi 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

Növbəti sosial islahat paketi çərçivəsində müavinət və təqaüdlərin artırılmasına əsaslanıb deyə bilərik ki, respublika əhalisinin rifah halının daha da yaxşılaşmasına xidmət edən sosial siyasət Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyət göstərdiyi ötən illər ərzində dövrün tələblərinə uyğun şəkildə zənginləşdirilərək hazırda yeni keyfiyyət mərhələsinə daxil olub. Bu gün ölkəmizdə yoxsulluğun azaldılması istiqamətində reallaşdırılan iqtisadi islahatlar nəticəsində əhalinin sosial şəraitinin, habelə məşğulluq səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi özünü qabarıq büruzə verir.

Azərbaycan iqtisadiyyatında qazanılan uğurların son nəticədə sosial ədalət prinsiplərinin möhkəmləndirilməsinə xidmət göstərdiyini vurğulayan dövlətimizin başçısı çıxışlarının birində sosial sahədə həyata keçirilən ciddi proqramların mahiyyətini izah edərək deyib: "...Əlbəttə, bizim bütün işlərimizin təməlində və mərkəzində insan amili dayanır. Hesab edirəm ki, bu, hər bir dövlət üçün ən vacib yanaşmadır. Çünki hər şey insan üçün edilir. Onun azadlığı, təhlükəsizliyi, sağlamlığı, işlə təmin edilməsi, rahat yaşaması dövlətin başlıca qayğısıdır. Hesab edirəm ki, bu istiqamətdə də böyük addımlar atılıb, uğurlar əldə edilib. Azərbaycan vətəndaşları azad cəmiyyətdə yaşayırlar. Onlar bütün azadlıqlara malikdirlər və öz dövlətinin gücünü artırmaq üçün çalışırlar".

Ölkə rəhbəri respublikamızın iqtisadi uğurlarından bəhrələnməklə, ilk növbədə, xalqın həyat səviyyəsini yüksəltməyə, onun güzəranını yaxşılaşdırmağa mühüm önəm verir, sosial məsələlərin həllinə böyük diqqət yetirir. Eyni zamanda, sosial ədalət prinsiplərini möhkəmləndirməyi qarşıya ciddi vəzifə kimi qoyur: "Dünyada gedən xoşagəlməz halların əsas səbəbi əslində sosial ədalətsizlikdir. İqtisadi islahatlar, eyni zamanda, güclü sosial siyasətlə tamamlanmalıdır. Əgər bu olmasa, köklü iqtisadi islahatlar insanlara əziyyət gətirə bilər. Biz ona nail ola bilmişik ki, sosial sahədə də çox ciddi proqramlarımız vardır və bu proqramlar icra edilir. İnsanların rifah halının yaxşılaşdırılması onu göstərir ki, bu sahədə də addımlar uğurlu istiqamətdə atılmışdır".

Bu baxımdan hazırda ölkə qarşısında duran bütün əsas vəzifələrin icra olunduğunu, iqtisadiyyatımızın davamlı inkişaf etdiyini vurğulayan Azərbaycan Prezidenti sosial sahədə işlərin bundan sonra da uğurla aparılacağını deyib.

***Hazırladı:***
***V.BAYRAMOV***
***XQ***

# Aİ-dən Ermənistana "Çörək və tamaşa"

## Yaxud "kökə təfəkkürü" ilə "köhnə qitə"yə gediş sərbəstliyi



**"Çörək və tamaşa" – yəqin ki, çoxları bu deyimin mənasını bilir. Qədim Romada satirik şair Yuvenalın söylədiyi bu ifadə xalqı idarə etmək üsuluna işarədir: əsas olan onları əyləndirmək və doyurmaqdır. Məsələ barədə yazının sonunda daha ətraflı danışacağıq. Hələlik qeyd edək ki, iyunun 24-də Avropa İttifaqı ilə Ermənistan arasında viza rejiminin liberallaşdırılması ilə bağlı plan layihəsinin müzakirəsi keçiriləcək. Bu barədə Aİ-nin daxili işlər və miqrasiya üzrə komissarı Maqnus Brunner məlumat verib.**

Əlbəttə, Ermənistanla Aİ ölkələri arasında viza rejiminin aradan qaldırılması, yəni birincinin vətəndaşlarının Şengen zonasına sərbəst gediş-gəlişinin tətbiqinə dair müzakirələr bir müddətdir gündəmdədir. Daha doğrusu, Aİ 2024-cü ilin iyulunda vizasız səfər barədə danışıq prosesinin başladığını təsdiqləyib. Həmin ilin sentyabrında bu məsələyə dair dialoqun rəsmi şəkildə başladığı açıqlanıb. Bu ilin ilk yarısında isə ilkin "Visa Liberalisation Action Plan"ın (VLAP) təqdim ediləcəyi gözlənilir. Çox güman ki, iyunun 24-də keçiriləcək müzakirələr də bununla bağlı olacaq. Ümumiyyətlə, Ermənistanın Şengen zonasına daxil edilməsi prosesinin 2-5 il çəkə biləcəyi bildirilir. Əgər hər şey plan üzrə getsə, erməni vətəndaşlar Şengen zonasında 90 günə qədər vizasız səyahət edə biləcəklər.

Bu yaxınlarda Ermənistanın daxili işlər naziri Arpine Sarkisyanla Maqnus Brunner arasında Brüsseldə həmin məsələyə dair müzakirə aparılıb. Tərəflər qarşılıqlı təmasların gücləndirilməsi barədə razılığa gəliblər. Sarkisyan ölkəsində həyata keçirilən islahatlar barədə avropalı komissarı məlumatlandırıb və Ermənistanın viza rejiminin liberallaşdırılması üçün digər tədbirlərə də hazır olduğunu vurğulayıb. Habelə erməni nazir Brunneri gələn il Ermənistana səfərə dəvət edib ki, o, islahatlarla yerində tanış olsun və birgə əməkdaşlıq genişləndirilsin.

Aydındır ki, Aİ ilə vizasız gediş-gəliş məsələsi, əslində, Ermənistanı Rusiyadan uzaqlaşdırmaq məqsədi daşıyan şirnikləndirici addımlardan biridir. Bu, eyni zamanda, Cənubi Qafqazda Moskvanın təsirini azaltmağa yönəlmiş bir plandır. Başqa sözlə, Aİ-nin "erməni sevgisi"nin arxasında mütərəqqi və səmimi niyyətlər dayanması şübhə doğurur.

Digər tərəfdən, orta statistik erməni vətəndaşı düşüncə tərzi baxımından Avropa ailəsinə tamamilə yad bir obrazdır. Hazırda baş nazir Nikol Paşinyan administrasiyası ilə Aİ rəhbərliyi birləşərək özlərini elə təqdim edirlər ki, guya, ermənilərin Avropaya sərbəst səfəri fövqəladə hadisədir. Əslində isə bu, sadəcə vizanın alınmasına dair prosedurdan və təxminən, 100 avro rüsumdan azad olmaq deməkdir. Bəs bu 100 avro ilə Avropada nə etmək olar? Heç nə! Sıravi erməni böyük ehtimalla Avropanın küçələrində kökə ilə dolanacaq – çünki onun cibində başqa nəyəsə çatacaq pul olmayacaq.

Deməli, Ermənistanla Aİ arasında viza rejiminin ləğvi, əslində, diqqəti əsas problemlərdən yayındırmaq cəhdidir. Bu, fundamental yanaşma ola bilməz. Çünki fundamentallıq, ilk növbədə, rəqəmlərdə əks olunur. Hazırda Ermənistanın Aİ ölkələri ilə ticarət dövriyyəsinin həcmi Rusiya ilə ticarət dövriyyəsi ilə müqayisədə xeyli azdır və hətta 2023-cü ilə nisbətən bu sahədə azalma müşahidə olunur.

Uzun sözün qısası, Ermənistan heç bir halda, belə desək, Avropa ailəsinin parametrlərinə uyğun gəlmir. Elə buna görə də yazının əvvəlində qeyd etdiyimiz "Çörək və tamaşa" ifadəsi olduqca yerinə düşür. Aydın görünür ki, həm rəsmi İrəvan, həm də Aİ rəhbərliyi bu vasitə ilə erməni xalqının diqqətini əsas məsələlərdən yayındırmaq istəyir. Məqsəd, xalqın hüquq və azadlıqları, sosial ədalətsizliklər və real problemlər ətrafında düşünmək əvəzinə, ilğımlı vədlərlə məşğul olmasıdır. Başlıcası, erməni cəmiyyətinin avantürizm üçün lazım olan "kütlə roluna" uyğunlaşdırılması və alətə çevrilməsidir.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Kilsə kövrək sülhü pozanların yanında durmamalıdır

(əvvəli 1-ci səhifədə)

Son vaxtlar ABŞ-dakı hay lobbisinin Azərbaycana qarşı təşkil etdiyi ideoloji diversiyaların icraçısı qismində Ümumdünya Kilsələr Şurası çıxış etməyə başlayıb. Hərçənd, bu qurumun haylara xristian təəssübkeşliyi göstərməsi heç də yenilik sayılmamalıdır. Bu barədə bir qədər sonra bəhs edəcəyik.

**

Məlumdur ki, Birləşmiş Ştatların yeni administrasiyası fəaliyyətində ənənəvi dəyərlərin qorunmasını rəhbər tutur. Aydın məsələdir ki, bu dəyərlər sırasında xristianlıq ön planda gəlir. Respublikaçı Prezident Donald Tramp dindar olmasa da, xristian dini ehkamlarının təbliğatçısı rolunda çıxış edir. Bu da öz növbəsində onun komandasının ümumən baxışlar sisteminə təsir göstərir. Belə incə diplomatik məqamdan yararlanmağa çalışan ABŞ-dakı ermənipərəstlər özlərinin anti-Azərbaycan fəaliyyətlərində məhz bu incəliyin üzərinə getməyə, ona siyasi sərmayə qoymağa cəhdlər göstərirlər. Ermənistan iqtidarı bu kontekstdə xaricdəki "dayı"larının ifasına "bek-vokalistlik" edir. Aydın məsələdir ki, İrəvan bunu bir qədər fərqli formada, yarıgizli şəkildə həyata keçirir. Amma yeri gələndə, "ümumi işə" konkret dəstəyini də əsirgəmir. Buna misal olaraq, Ermənistan baş naziri Nikol Paşinyanın Donald Tramp prezident səlahiyyətlərinin icrasına başlayandan dərhal sonra, cari ilin fevralında Vaşinqtona səfərini göstərmək olar. Səfərin rəsmən açıqlanan məqsədi Paşinyanın Birləşmiş Ştatlarda düzənlənən 5-ci Beynəlxalq Dini Etiqad Azadlığı Sammitində iştirakı idi. Yəni, Nikolun bu toplantıya qatılmaqda əsas "missiyası" ermənilərin xristian dininə çox yaxından bağlılığını reklam etmək və fürsət tapıb Trampla görüşmək idi. Bu cəhdin baş tutmaması Nikol Paşinyanın Ağ Evin "dairəvi kabineti"ndə qəbul edilməməsi ilə sübut olundu.

Göründüyü kimi, indi erməni lobbisi "ikinci dini dalğaya" start verib. Dövrəyə Ümumdünya Kilsələr Şurası (ÜKŞ) daxil olub. Oxuculara xatırladaq ki, ÜKŞ-nin Baş katibi Jerry Pilley 27-28 may tarixlərində Berndə keçirilən dini konfrans zamanı 2023-cü ildə Laçın dəhlizinə yaxın ərazıyə getdiyi vaxt, guya, "...fiziki yaraların, həm də öz kökündən qoparılan insanların iztirablarının şahidi" olduğunu dilə gətirib. Yəni, açıq-aşkar separatçı çıxış edib və Qarabağ ermənilərinin geriyə qayıtmaq haqqından danışıb.

Təbii ki, Jerry Pilleyin təxribatçı açıqlamasının cavabını Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə verməli idi. Belə də oldu. A.Paşazadə Jerry Pilleyə ünvanladığı məktubda qeyd edib ki, ÜKŞ kimi beynəlxalq kilsə təşkilatının erməni məkri və iftiralarına istinad edən sənədlərində islamofob dəst-xətt aydın sezilir: "Bu isə təşkilatın adına ləkə gətirir. İnsanları sülhə deyil, zorakılığa təhrik edən erməni kilsəsi erməni xalqını "ölənədək savaşa" səsləməklə onun gələcəyini növbəti təhlükələrə və fəlakətlərə sürükləyir. Bu məramla çağırış edirəm ki, erməni kilsəsinin, kövrək sülh şəraitini pozan qızışdırıcı, revanşist, həqiqətə uyğun olmayan təbliğatına və xristian təəssübkeşliyindən sui-istifadə cəhdlərinə ÜKŞ tərəfindən bundan sonra dəstək verilməsin. Öz xalqına heç bir nicat yolu qoymayan, onu yeni faciələrə sürükləyən erməni kilsəsinin destruktiv təsirinin ÜKŞ-nin rəsmi mövqeyi olaraq dünyaya bəyan edilməsinə son qoyulsun".




Bəli, ÜKŞ lideri öz açıqlaması ilə bəlkə də fərqinə varmadan, kövrək sülhün davamlı sülhə çevrilməsini istəməyən, təhrikçi, daşnak-revanşist qüvvələrin yanında dayanmış olur ki, bu da bütün dinlərin təbliğ etdiyi humanist dəyərlərin adına yaraşmayan hərəkətdir. QMİ sədrinin məktubunda məhz bu konteksti xüsusi qeyd etməsi diqqətimizdən yayınmadı: "Biz Ümumdünya Kilsələr Şurasına ədalətli dinlərarası dialoq və səmərəli əməkdaşlıq müstəvisi kimi tanımışıq. 1993-cü il fevralın 8-də Montrödə keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində dəyərli addım atılıb, məhz ÜKŞ-nin vasitəçiliyi ilə iki ölkənin dini liderlərinin iştirakı ilə yüksəksəviyyəli görüş təşkil olunub".

O xatırladıb ki, ÜKŞ-nin o vaxtkı Baş katibi Konrad Rayzerin tapşırığı ilə Azərbaycana səfər etmiş nümayəndə heyəti təcavüzə məruz qalmış, etnik təmizləmə siyasəti nəticəsində doğma torpaqlarından qaçqın və məcburi köçkün olaraq didərgin salınmış azərbaycanlıların ağır vəziyyəti ilə yerindəcə – çadır şəhərciklərində tanış olub, qayıtdıqdan sonra ölkəmizə humanitar yardım göstərmək barədə qərar qəbul edib".

Hesab edirik ki, A.Paşazadənin məktubda Jerry Pilleyin diqqətinə çatdırdığı bu xəbərdarlıq mesajı isə qarşı tərəfi düşünməyə vadar edəcək: "Məkr, qərəz və revanşizmi xristian dininin postulatları, İsa Məsihin tövsiyələri ilə ziddiyyət təşkil edən, şərəf və nüfuzu öz ölkəsində belə mübahisələndirilən, ruhani müqəddəsliyini itirməkdə olan erməni kilsə rəhbərlərinin təsirindən nə qədər tez uzaqlaşarsınızsa, ÜKŞ-nin beynəlxalq imici bir o qədər az zərər görər".

Bəs, üstündən 32 il keçəndən sonra nə baş verdi ki, ÜKŞ-nin Azərbaycana münasibəti 180 dərəcə dəyişdi, indi, o, hayparəst mövqedən çıxış edir? Çox şey dəyişdi. İşğalçı Ermənistan qanunsuz ələ keçirdiyi torpaqlarımızdan çıxarıldı, Qarabağda separatçı rejimə son qoyuldu. Bütün bunları xaricdəki erməni lobbisi, diaspor təşkilatları, eləcə də rəsmi İrəvan hələ də həzm edib qurtara bilmir...

***

Bu, ÜKŞ-nin ölkəmizə qarşı birinci və sonuncu "xristian deması" deyil. Diqqətli oxucuların yadında olar, ötən il ÜKŞ Mərkəzi Komitəsinin iclasının yekun sənədində birtərəfli xarakter daşıyan və erməni tərəfinin mənafelərinə xidmət edən bənd qəbul edilib. Məlumdur ki, belə bir bəndin qəbul olunmasında erməni kilsəsinin "xüsusi" rolu olub. Hələ 2022-ci ilin 31 avqust - 8 sentyabr tarixlərində ÜKŞ-nin 11-ci Asambleyasında da oxşar addım atılmışdı. Bununla əlaqədar Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, yəhudi və alban-udi konfessiyalarının rəhbərləri təmsil etdikləri icmaların ümumi rəyini bu cür ifadə etmişdilər: "Sözügedən sənəddə bütün dini icmaların əsrlər boyu sülh və əmin-amanlıq içində yaşadığı vətənimiz Azərbaycana qarşı qərəzli, əsassız və ədalətsiz ittihamlar yer alır. Sənədin təşəbbüskarları Ümumdünya Kilsələr Şurasının təqdim etdiyi platformadan öz məkrli siyasi məqsədləri üçün sui-istifadə edir, məqsədyönlü şəkildə bu mötəbər qurumun üzvləri olan xristian icmalar arasında 30 il ərzində Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış Azərbaycana münasibətdə yanlış fikir formalaşdırmaq cəhdlərini davam etdirir".

Azərbaycanın işğal olunmuş əraziləri azad edildikdən sonra o bölgələrə çoxsaylı səfərlər edən beynəlxalq təsisatlar, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri Ermənistan tərəfindən törədilən urbisid, ekosid, mədəni və dini abidələr, müsəlman, alban-udi ibadətgahlarına qarşı vandalizm əməllərinin həqiqi miqyasının canlı şahidi olub, bu cinayətləri sənədləşdiriblər.

**ARAYIŞ:** ***Ermənistan tərəfindən Azərbaycan ərazilərinin hərbi işğalı nəticəsində 700-dən çox tarixi və mədəniyyət abidəsi, o cümlədən 927 kitabxana, 808 mədəniyyət mərkəzi, 85 musiqi və sənət məktəbi, 100 mindən çox eksponatı ilə 22 muzey, 4 sənət qalereyası, 4 teatr və 2 konsert salonu məhv olunub və talan edilib, yandırılmış torpaq siyasəti tətbiq edilib. Bu ərazilərdə qalan və qeydiyyatda olan 67 məsciddən 65-i tam dağıdılıb, digər 2-si isə acınacaqlı vəziyyətə salınıb. İşğal dövründə təkcə İslam dini abidələri deyil, həmçinin Qafqaz Alban Apostol Kilsəsi və Pravoslav Xristian abidələri erməni vandalizminin hədəfinə çevrilib. Hazırda işğaldan azad olunmuş ərazilərimizə səfər edən beynəlxalq ictimaiyyətin nümayəndələri yerlə bir edilmiş Ağdamı "ruhlar şəhəri", "Azərbaycanın Xirosiması" adlandırırlar.***

Artıq bütün dünya bilir ki, 30 il işğal altında qalmış ərazilərimizdə tarix və mədəniyyət abidələri məqsədyönlü şəkildə məhv edilib. Onların etnik, hətta dini mənşəyinin qəsdən saxtalaşdırılması və mənimsənilməsi isə beynəlxalq humanitar hüquqa, müvafiq saziş və müqavilələrə ziddir. Bu, eyni zamanda, "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasının ermənilər tərəfindən açıq şəkildə pozulmasıdır. Sonda bir maraqlı detalı da nəzərinizə çatdıraq: Azərbaycana qarşı uydurma "erməni soyqırımı", "etnik təmizləmə" kimi iddialar yalnız xristian dövlətləri tərəfindən səsləndirilir. Saxtakar ermənilərin "genosid" iddiasını yalnız xristian dövlətlərinin parlamentləri tanıyır. Bunun xristian həmrəyliyi ilə bağlılığı varmı? Varsa da, bu, hayların xislətində oturmuş saxtakar, hiyləgər həmrəylikdir. Belə həmrəyliyi isə heç bir din qəbul etməz.

*İmran BƏDİRXANLI*
*XQ*

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

– Əgər Ümumdünya Kilsələr Şurasının rəhbəri, doğrudan da, ermənilərin təəssübünü çəkirsə, məsələlərə həssaslıqla yanaşırsa, gərək əvvəlcə münaqişənin tarixinə və mahiyyətinə nəzər yetirsin. XIX əsrin əvvəllərindən, çar Rusiyasının maraqlarına uyğun olaraq, Qafqaza ayaq açan ermənilər yalnız vasitə və alət rolunu oynayıblar. O dövrdən etibarən erməni kilsəsi dövlətçilik xəyalları ilə yaşayan xalqın önündə gedib, onu yönəldib və idarə edib. Bu kilsə heç vaxt Tanrının sözünü deyil, radikalizmi və faşizmi təbliğ edib. Hayların gizli dualarında ortodoks, lüteran və digər kilsələrin ünvanlarına lənətlər yağdırılır. Çünki onların düşüncəsinə görə, digər dinlərin hamısı qondarmadır. Bunu mütəxəssislər sübuta yetiriblər.

Son iki yüz ildə Azərbaycan xalqının yaşadığı dəhşətlərin baiskarı məhz erməni kilsəsi olub. Həm din xadimləri, həm də onların ətrafında birləşən erməni quldur dəstələri. Bu gün heykəlləri qoyduqları "qəhrəmanların" hamısı başkəsən, qaniçənlərdir. Qarabağ münaqişəsi başlayanda ermənilərin katalikosu II Vazgenin dediyi yadımızdadır. O söyləmişdi ki, ərazilərimizi genişləndirmək naminə biz Azərbaycanda yaşayan erməniləri qurban verməyə hazırıq. Bunların davası dini inanc, dinc, rahat yaşayış yox, ərazi davasıdır. Bu həqiqətlərdən bölgəyə təşrif buyurmuş ÜKŞ-nin rəhbəri Jerry Pilleyi də agah etmək lazımdır.

# Milli Qurtuluşdan başlanan Zəfər yolumuz



**1993-cü ilin 15 iyunu müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olub. 32 il əvvəl ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi, sözün həqiqi mənasında, xalqımız üçün əsl qurtuluş məqamıdır.**

Bu taleyüklü tarixi yaradan ömrünün yerdə qalan hissəsini də xalqına, Vətəninin tərəqqisinə, respublikanın demokratik prinsiplər əsasında inkişafına həsr edən ulu öndər Heydər Əliyev oldu. Müdrik şəxsiyyət XX əsrdə azadlıq, suverenlik yolunda ikinci dəfə addımlar atan Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında və əbədiləşdirilməsində müstəsna rol oynadı.

Ümummilli lider daim xalqına arxa-dayaq durduğunu, müstəqil Azərbaycanın inkişafı, dünya birliyinə inreqrasiyası yolunda hər cür çətinliklərə, məşəqqətlərə hazır olduğunu bir daha təsdiqlədi və qarşıda onu böyük risklərin, təhlükələrin gözlədiyinə baxmayaraq, xalqın qurtuluşu, Azərbaycanın xilası missiyasını cəsarətlə öz üzərinə götürdü. 1993-cü il iyunun 15-də Ali Sovetin sessiyasındakı çıxışında Ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və çətinliklərə, qarşıdurmalara, dövlət çevrilişi cəhdlərinə sinə gərərək qarşısına qoyduğu məqsədə nail oldu.

Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub saxlamaq və inkişaf etdirmək idi. Ümummilli liderin polad iradəsi sayəsində bu, reallığa çevrildi. XX əsrin sonlarında keçmiş SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa edən Azərbaycan bu tarixi fürsəti yaşatmaq və inkişaf etdirmək üçün yaranmış fürsətlərdən yetərincə istifadə edə bilmədi. Xalqın qanı bahasına qazanılmış müstəqilliyimiz həmin vaxt hakimiyyəti ələ keçirmiş dövlət idarəçiliyində naşı olanların sayəsində addım-addım uçuruma yaxınlaşırdı.

Ölkədə hakimiyyət böhranı getdikcə dərinləşir, xaos, özbaşınalıq geniş vüsət alır, qeyri-qanuni silahlı birləşmələr əhalini qorxu içərisində saxlayırdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq bu bəladan qurtulmaq üçün yollar axtarır, bəziləri xarici ölkələrə üz tuturdu. Vətəndaş müharibəsi səviyyəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı.

Ulu öndər Heydər Əliyev sonralar müstəqilliyimizin həmin mərhələsini xarakterizə edərkən demişdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Ölkədə yaranmış özbaşınalıq Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalına rəvac verirdi. Getdikcə gərginləşən siyasi vəziyyət, gündən-günə ağırlaşan sosial durum, müstəqilliyimizin, ümumilikdə, Azərbaycanın parçalanmaya, məhvə, dünya xəritəsindən silinməyə yaxınlaşması xalqı ciddi narahat edirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Belə bir zamanda ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə böyük ehtiyac yaranmışdı. Cəmiyyətin bütün təbəqələri, ziyalılar, ictimai-siyasi xadimlər, zəhmətkeş insanlar müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanı düşdüyü ağır və dözülməz vəziyyətdən yalnız Heydər Əliyevin xilas edə biləcəyinə əmin idilər. Çünki tarixi şəxsiyyət dövlət idarəçiliyində zəngin təcrübəyə və dünya birliyində yüksək nüfuza malik idi.

1992-ci ilin oktyabrında ziyalılar böyük inam və ümidlə ulu öndər Heydər Əliyevə üz tutdular. Onların müraciətində deyilirdi: "Möhtərəm Heydər bəy! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan, sözün əsl mənasında, siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir".

Ziyalılar daha sonra bildirirdilər ki, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır.

Küçə və meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar, özlərini xalqa millətsevər, azadlıq aşiqləri və demokrat kimi sırıyanların əməlləri bir daha təsdiqləyirdi ki, onlar demokratiyanın mahiyyətinin dərk edə bilmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər.

Rəhbərliyin siyasi naşılığından, idarəetmədəki təcrübəsizliyindən, ən başlıcası isə hakimiyyət hərisliyindən istifadə edən xarici qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edir, bütün vasitələrlə Azərbaycanın müstəqil dövlət kimi inkişafına mane olurdular. Respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağıdılır, təbii sərvətlərimiz talan edilirdi. Ziyalılar qəti olaraq bildirdilər: "İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs sizsiniz!"

Ölkə ziyalılarının narahatlığını haqlı və təqdirəlayiq hesab edən Ümummilli lider Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsini tarixi hadisə adlandırmış və bunun bütün azərbaycanlıları, Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirdiyini qeyd etmişdi. Müdrik şəxsiyyyət bundan sonra əsas vəzifənin dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarət olduğunu bildirmişdi. Böyük rəhbər qeyd etmişdi ki, bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir. Ulu öndər ömrünün qalan hissəsini bu şərəfli missiyaya həsr etməyə hazır olduğunu bildirmişdi.

Beləliklə, 1993-cü il iyunun 9-da Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtmışdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi faciələrdən, müsibətlərdən, qardaş qırğınından və vətəndaş qarşıdurmasından xilas etmişdi. İyunun 15-də isə Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürmüşdü.

Ulu öndər bu çətin və şərəfli missiyanı öz üzərinə götürərkən demişdi: "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır". Məhz bundan sonra Azərbaycanın ictimai-siyasi, eləcə də bütün sahələrində əsaslı dönüş yaradıldı. Tarixi şəxsiyyət öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı tədricən aradan qaldırdı və müstəqil ölkənin inkişafının təməlini qoydu.

Milli Qurtuluş Gününün təntənəsi müstəqil respublikamızın davamlı inkişafında mühüm rol oynadı. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu getdikcə yüksəldi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yeni qanunvericilik aktları qəbul edildi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu. 1997-ci ildən etibarən Milli Məclisin qərarı ilə həmin gün rəsmi bayram kimi qeyd edilir.

Müdrik şəxsiyyətin ən böyük arzusu Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi, dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada görmək idi. Ulu öndərin hər bir addım və hərəkətləri məhz bu istiqamətə yönəlmişdi. Ümummilli liderin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu.

Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı. Bu islahatlar digər sahələrdə olduğu kimi, prokurorluq, hüquq-mühafizə orqanlarının, məhkəmə sisteminin yeniləşməsində və formalaşmasında da özünü büruzə verdi.

Ulu öndərin siyasi kursunu bütün sahələr üzrə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə mütəmadi olaraq aparılan islahatlar çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış qanunlar qəbul edildi.

Bu sırada "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamə və digər normativ sənədlərin təsdiq edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni mərhələyə yüksəlmişdir. "Məhkəmələr və hakimlər haqqında" və "Konstitusiya Məhkəməsi haqqında" qanunlar xüsusilə qeyd olunmalıdır. Eyni zamanda, mötəbər beynəlxalq təşkilatların, Avropa ekspertlərinin rəyləri nəzərə alınmaqla "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında" və "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamələr qəbul edildi.

Ulu öndərin Azərbaycanı inkişaf etmiş və dünyanın qüdrətli dövlətləri sırasına qoşulmaq arzusunu möhtərəm Prezidentimiz İlham Əliyev reallaşdırdı. Bu gün dünya dövlətləri tərəfindən qəbul edilən müstəqil və suveren Azərbaycan beynəlxalq aləmdə söz sahibinə çevrilib. 2020- ci ilin noyabrında Ermənistan üzərində qazanılan tarixi Qələbə və 3 il sonra yenilməz Ordumuzun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatından sonra Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Beləliklə, Milli Qurtuluşdan başlanan yol xalqımızı Zəfər tarixinə yetişdirdi.

*Asif ŞIXƏLİYEV,*
*Bakı Şəhər Prokurorluğu idarə rəisinin müavini, ədliyyə müşaviri*



# Ulu öndərin xilaskarlıq missiyası

**Qurtuluş Günü bizə nə verdi? Bir sıra insanlar, həqiqətən, bu sualın cavabını bilmirlər, cavab tapmaq istəyirlər, bəziləri isə bilərəkdən özlərini bilməməzliyə vurub, düşüncələri zəhərləmək istəyirlər.**




Cavabım hamıya aid olacaq. Çünki deyəcəklərim o şərəfli günün həqiqətlərini əks etdirəcək...

Keçən əsrin 90-cı illərinin əvvəllərini yaddan çıxarmaq olmaz. Heç bu mümkün də deyil.

Ölkəmizdə siyasi-iqtisadi vəziyyət nə günə düşmüşdü! Heç kimin gələcəyə ümidi qalmamışdı. Hakimiyyət uğrunda didişmələr, hərc-mərclik, başsızlıq, ordumuzun olmaması – bütün bunlar torpaqlarımızın ermənilər tərəfindən işğal olunmasına, cəmiyyətdə başıpozuqluğa səbəb olurdu. Vətəndaş müharibəsi təhlükəsi qarşısında qalmışdıq. Azərbaycan böyük çətinliklərlə qazandığı müstəqilliyini itirə bilərdi! Vətənimiz, dövlətimiz parçalanmağa doğru gedirdi.

Deyirlər, hər millətin ağır dövründə həmin millətlərin böyük şəxsiyyətlər ortaya çıxır, xalqa, Vətənə dayaq olur. Azərbaycanın məhz, həmin dövründə xalqımız yeganə ümidini Heydər Əliyevə bağladı, Böyük Şəxsiyyəti köməyə çağırdı. Heydər Əliyevin özünün də dediyi kimi, Azərbaycanın çətin dövründə o, kənarda qala bilməzdi, qalmadı da! Xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldi.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra dövlət çevrilişləri cəhdlərinin qarşısı alındı, təxribatlara, terror aktlarına son qoyuldu, cəbhədə atəşkəs elan edildi, torpaqlarımızın işğalının qarşısı alındı, xarici və daxili düşmənlərimizin dövlətçiliyimizin dağılmasına yönəlmiş əməlləri ifşa olundu.

Ölkədə sabitlik yarandı, səsimiz bütün dünyaya çatdırıldı. Beynəlxalq təşkilatlarla əlaqələr yaradılmağa başlanıldı.

Heydər Əliyevin tarixi qayıdışı nüfuzlu dövlətləri Azərbaycanın mövqeyi ilə razılaşmağa təhrik etdi. Güclü ordu quruculuğuna başlanıldı. Ölkəmiz siyasi, iqtisadi və dövlət böhranından xilas oldu. "Torpaq islahatı haqqında Qanun" həyata keçirildi, "Əsrin müqaviləsi" imzalandı.

Xarici dövlətlər Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığını təsdiq etdi

Artıq Azərbaycan müstəqil dövlət siyasəti yeritməyə başladı, uca tribunalardan səsimiz bütün dünyaya çatdırıldı.

Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda demokratik dövlət quruculuğu üçün baza yaradıldı. Azərbaycanın yeni Konstitusiyası qəbul edildi, parlamentimizə ilk demokratik və azad seçkilər keçirildi.

Heydər Əliyev Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yorulmadan çalışırdı. O, dünya ölkələrinə səfəri zamanı hər yerdə Qarabağ problemini qabardır, cəsarətli çıxışları ilə torpaqlarımızın işğal edildiyini faktlarla sübuta yetirirdi.

Böyük dövlət xadiminin az zamanda həyata keçirdiyi cahanşümul işləri saymaqla bitirmək mümkün deyil!

1993-cü il 15 İyun Qurtuluş Günü xalqımızın istəyi ilə təsis edildi. Ona görə də Qurtuluş Günü respublikamızın vətəndaşları tərəfindən hər il bayram kimi qeyd edilir. Çünki Heydər Əliyev həmin gün ikinci dəfə siyasi hakimiyyətə gəlməklə xalqımızın firavan yaşayacağı günlərin bünövrəsi qoyulmuşdur.

Mən fəxr edirəm ki, Milli Məclisin o zamankı deputatları ilə birlikdə Qurtuluş Gününün təsis edilməsində iştirak etmişəm! Əziz xalqımızı bu şərəfli gün münasibətilə ürəkdən təbrik edirəm!

*Xeyrəddin QOCA,*
*yazıçı*

# Qurtuluş Gününə musiqi töhfəsi



**Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin mənzil-muzeyində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə 15 İyun – Milli Qurtuluş Günü münasibətilə konsert proqramı təşkil olunub.**

Konsertdən öncə dövlət muzeyinin şöbə müdiri Xanım Abdinova çıxış edərək müstəqil Azərbaycanın xilaskarı – ümummilli lider Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsinə olan böyük diqqət və qayğısından danışıb. Sonra "Milli Qurtuluş Günü" adlı videoçarx nümayiş olunub. Konsert proqramında isə Bakı Musiqi Akademiyasının müəllimi, respublika müsabiqələri laureatı Nigar Əsədovanın rəhbərliyi ilə tələbələrin ifasında Qərbi Avropa və Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət rəngarəng musiqi nömrələri təqdim edilib.

*XQ*

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik



VII MƏQALƏ

## "Bizim ailəmiz Türk dünyasıdır"

Bu mövzuda öncəki məqalələrdə alınan son qənaət ümumtürk identikliyinin formalaşmasının zəruriliyi və perspektivi ilə əlaqəli idi. Burada "bir millət, iki dövlət" kəlamının semantik və kommunikativ sahəsində formalaşmış "bizim ailəmiz Türk dünyasıdır" məşhur kəlamının ifadə etdiyi mahiyyətyaradıcı, məzmunlaşdırıcı, məqsədyönlü anlamları işığında məsələyə baxmaq gərəkdir. Prezident İlham Əliyevin yeni tarixi mərhələdə irəli sürdüyü bu tarixi tezis real ümumtürk identikliyinə aparan ana yoldur. Bu, həm nəzəri, həm də praktiki məsələdir. Vurğulanan kəlamın əhatəli fəlsəfi, siyasi, elmi və ümumiyyətlə, nəzəri obrazı yaradılmalıdır. Bu əsasda ümumtürk birliyinin və onun aparıcı parametrlərindən biri olan ümumtürk identikliyinin məzmununu müəyyən etmək olar. Burada politoloji əhəmiyyəti olan bir məqamı vurğulayaq:

Bütövlükdə "bizim ailəmiz Türk dünyasıdır" tezisi "bir millət, iki dövlət" kəlamının yeni tarixi mərhələyə yaradıcı proyeksiyasıdır. Siyasi varislik əsasında Prezident İlham Əliyev yeni mərhələ üçün istiqamətverici rol oynayan tezislərdən birini formalaşdırmışdır. Çox əhəmiyyətlidir ki, həmin tezis həm də yeni tarixi mərhələdə milli ideya və dövlət suverenliyinin tam təmin edilməsi kimi vacib faktorlarla bağlıdır.

Biz hələ fəlsəfi və siyasi-nəzəri olaraq araşdırmalıyıq ki, yeni tarixi mərhələ üçün milli ideyada "bizim ailəmiz Türk dünyasıdır" kəlamının fonunda ümumtürk identikliyinin yeri və rolu necə olmalıdır. Eyni zamanda, Türk dünyasını ailəmiz kimi təsəvvür etməyimizin prizmasında dövlət müstəqilliyimiz və suverenliyimiz hansı siyasi, geosiyasi və hüquqi sərhədlər çərçivəsində daha optimal ola bilər? Məhz bu kimi suallara cavab axtarışları kontekstində yeni milli ideyanın məzmunu, tam suverenliyin təmini türk dövlətlərinin perspektivli təşkilatlanması baxımından son dərəcə aktualdır.

## Milli ideya, suverenlik və identiklik

Bəlkə də adi səviyyədə bu anlayışlar arasında sıx əlaqə məsələsi aydındır. Ancaq onların fəlsəfi və politoloji kontekstlərdə anlamları dərk edilməli və konkret məzmunlandırılmalıdır.

Milli ideya suverenlik və identikliyi özündə ehtiva edir. Çünki milli ideya özşüura daxildir. Milli özşüur isə mütləq şəkildə suverenliyin və cəmiyyət identikliyinin obrazlarının formalaşmasını tələb edir. Bu aspektdə problemin qaynağı "milliliyin" müasir anlamı ilə bağlıdır.

Millilik birbaşa dövlətçiliklə əlaqəli izah olunur. Dövlətə sahib olmaq isə zəruri olaraq həm ictimai, siyasi, mədəni və dövləti identikliyi, həm də suverenliyin tam təminini tələb edir. Bu isə onu göstərir ki, milli ideya substantiv (məzmun və mahiyyət) baxımından identikliklə suverenliyi özündə birləşdirməlidir. Həm də onların zaman-məkan kontinuumunda kəsintisiz reallaşmasının mexanizmlərini yaratmalıdır. Buradan problemin kökünə varmaq olar.

"Milli ideya–identiklik–suverenlik" mənəvi üçbucağının mövcud olması və onun dinamik təkamülünü təmin edə biləcək faktor hər bir tarixi dönəmdə liderin siyasi təcrübəsidir. Belə alınır ki, vurğulanan kəlam həm də Prezident İlham Əliyevin liderlik təcrübəsinin birbaşa ifadəsidir. İlham Əliyev realpolitikada əldə etdiyi təcrübəni ümumiləşdirərək belə bir tezisin Azərbaycan müstəqil dövlətçiliyi üçün çox faydalı olduğu qənaətinə gəlmişdir. Bu məqam həmin tezisin tam əsaslı olduğunu və onun müasir real mənzərəyə (bu mənada realpolitikaya) əsaslandığını göstərir.

Bundan başqa, bir maraqlı qənaət əldə edilir: XXI əsrin şərtləri elədir ki, yaradıcı liderin milli ideyanı formalaşdırma, identikliyi məzmunlaşdırma və suverenliyi təmin etmə mexanizmlərini hazırlama qüdrəti ön plana çıxır. Həmin prizmada Azərbaycan Prezidenti İlham Əliyevin "bizim ailəmiz Türk dünyasıdır" kəlamı həm də motivəedici, yönləndirici, müəyyənedici, məzmunlaşdırıcı və fəal reallaşdırmaya istiqamətləndirici tarixi strategiyadır! O həm də proqramdır, seçim deyil. Azərbaycanın güclü və tam müstəqil dövlət olmasının yığcam manifestidir! Bunlarla yanaşı, həmin tezis Türk dünyasının XXI əsrin tələblərinə uyğun təşkilatlanmasının əsaslı konsepsiyasıdır.

## Türk birliyinin identikliyi

Əgər bu məsələyə ciddi elmi prizmadan yanaşsaq, hər şeyin özlüyündə aydın olmadığı qənaətinə gələrik. Tarixi-mədəni baxımdan burada qeyri-müəyyən heç nə yoxdur: etnik kök eyniliyi, ortaq adət-ənənə, eyni ailə modeli, mədəniyyət, din, dil eyniliyi və digər çoxlu sayda faktorlar vahid türk qövmündən danışmağa imkan verir.

Lakin məsələ dövlət və bütövlükdə cəmiyyət səviyyəsində identiklikdən gedirsə, burada bir sıra parametrlər müəyyən olunmalıdır. Bu istiqamətdə, obrazlı desək, "türk birliyi təcrübəsi" mövcuddurmu?

Etiraf edək ki, müasir mərhələdə belə bir təcrübə geniş miqyasda mövcud deyil. Lakin "bir millət, iki dövlət" kəlamının semantik və kommunikativ çərçivəsində həmin təcrübənin formalaşmaqda olduğunu söyləmək olar. Bu kəlam türk dövlətlərinin ittifaqlığının mənəvi, siyasi və ideoloji sərhədlərini müəyyən edir. İdentiklik də bura daxildir. Vurğulamışıq ki, onun təməlində azərbaycançılıq dayanır. Buradan "türkiyəçiliyə" mənəvi və məzmun keçidi etmək olar. Eynilə, "qazaxıstançılıq", "özbəkistançılıq", "qırğızıstançılıq", "türkmənistançılıq", "kiprlilik" və s. anlayışlara konkret məzmun verilə bilər.

Belə olduqda, identiklik baxımından türk birliyinin ümumi mənzərəsi belə ola bilər: Hər bir türk cəmiyyəti özünü qiymətləndirərək identikliyini milli maraqlara uyğun müəyyən edir və onların arasında inteqrasiya prosesinin mexanizmləri hazırlanır. Bu baxımdan azərbaycanlı azərbaycançı, türkiyəli türkiyəçi, qazaxıstanlı qazaxıstançı və s. olaraq qalmaqla bütövlükdə türk ailəsinə mənsubiyyətini identikliyinin təməl parametri kimi qəbul edir.

## İdentikliyin heterogen modeli

Burada "heterogenlik" – qeyri-bircinslik, müxtəlifliyin vahid struktur-funksional sistemdə ziddiyyətsiz mövcud olması – nəzərdə tutulur. Təbiət elmlərinə məxsus bu anlayışın fəlsəfi və politoloji yanaşmaya tətbiqi ümumtürk identikliyinin elmi dərki baxımından əhəmiyyətlidir.

Çünki bu halda ümumtürk identikliyində görmək istədiyimiz başlıca məqamlar – "bir millət, iki dövlət" kəlamından "bizim ailəmiz Türk dünyasıdır" tezisinə keçid – mexanizmlər və dinamikası ilə birlikdə aydınlaşa bilər.

Əsas prinsip – hər bir türk xalqının özünəməxsusluğunu və ənənələrinin əsas çalarlarını qorumaqdır. Onun təminatçısı isə mədəniyyətdir. Çünki identiklik hər bir halda sosial-mədəni mahiyyətli fenomendir. Burada məcburiyyət və ya süni məzmunlaşdırma keçərli deyil – nəticəsi iflasdır. Dünya təcrübəsi bunu göstərir.

Türk xalqları ilə bağlı bir özəllik də vardır: hər biri artıq müstəqil dövlətə malikdir. Prezident İlham Əliyevin uzaqgörənliyi ondadır ki, bu reallığı çox gözəl ifadə edən bir anlayış seçmişdir – "türk ailəsi" termininin siyasi, geosiyasi, dövləti və mədəni aspektlərin vəhdəti kimi işlədilməsi.

## Türk ailəsinin fəlsəfi və siyasi-nəzəri anlamı

Bu anlayışın mütləq həqiqət kimi təqdim edilməsindən uzağıq. Məqsəd düşünmək üçün bir neçə tezis irəli sürməkdir. Prezident İlham Əliyev isə daha dərin, geniş və siyasi motivli kreativ fəaliyyət göstərən yenilikçi liderdir!

"Türk ailəsi" anlayışının törədən, qaynaqdan gələn, kodlaşdırılmış əlamətləri var: köləliyin olmaması, ailə üzvlərinin qarşılıqlı dəstəyi, yeni ailələr yaratmaq və birgəyaşam keyfiyyətləri, qonşularla mehriban münasibət və bütün bunların "öz kökü" üzərində qurulması. Bu "yosun qanunu" ilə tənzimlənir – xalq və millət miqyasında bu qanun türk qövmünün başlıca özünütəşkil mexanizmidir.

Türk ailəsinin bu tarixi nümunəsini XXI əsrdə müstəqil dövlətlərarası birlik modelinə çevirmək asan deyil. Lakin Azərbaycan Prezidenti bu istiqamətdə siyasi məzmunu müəyyənləşdirib və nəzəri araşdırmalar artıq aparılmalıdır.

## Türk Dövlətləri Təşkilatı kontekstində

Ümumtürk identikliyi aspektində "türk ailəsi" anlayışının TDT kontekstində praktiki və tətbiqi mənaya sahib olması ayrıca əhəmiyyətlidir. Burada TDT faktoru birbaşa müsbət və nəticəverici rol oynayır. XXI əsrdə türk liderləri dünyaya göstərirlər ki, siyasi təşkilatlanmanın təməlində ortaq identiklik durur.

Nəticədə, "türk ailəsi" ümumtürk identikliyinin bütün çalarlarını birləşdirən fenomendir. Onun siyasi, geosiyasi, ideoloji, mənəvi, mədəni və digər aspektləri daim araşdırılmalı, dinamik şəkildə yenilənməlidir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ölkəmizdə tolerantlıq dünyaya örnəkdir

### *ABŞ-ın etiqad azadlığı qurumu bu gerçəyə əyri güzgüdə baxır*

**Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, ölkə daxilində hər bir vətəndaşın istədiyi dinə etiqad etmək və ya etməmək hüququ var. Bu hüquq istər fərdi, istərsə də kollektiv olaraq təmin edilir. Əgər dini mərasimlər ictimai asayişi və əxlaqi normaları pozmursa, onların keçirilməsi qanunla qorunur.**

Hazırda Azərbaycanda fəaliyyət göstərən yüzlərlə məscid, kilsə və sinaqoq dini müxtəlifliyin və tolerantlıq siyasətinin bariz nümunəsidir. Statistik məlumatlara əsasən, ölkədə qeydiyyatdan keçmiş dini icmaların, təqribən, 95 faizi İslam, 5 faizi isə digər dinlərə (xristianlıq, yəhudilik və s.) məxsusdur. Ən önəmlisi isə odur ki, Azərbaycan daxilində heç bir dini konfessiyaya qarşı ayrı-seçkilik və ya təqib yoxdur.




Bununla belə, bəzi beynəlxalq təşkilatlar bu reallığı görməzdən gəlir və dini məsələlərdən geosiyasi məqsədlərlə istifadə edirlər. Belə qurumlardan biri ABŞ-ın Beynəlxalq Dini Etiqad Azadlıqları Komissiyasıdır (USCIRF). Bu qurum son illər Azərbaycanı dini etiqad azadlığını pozmaqda suçlayır, Qarabağda, guya, xristian abidələrinin dağıdıldığını iddia edir. Komissiya Azərbaycanın bəzi hüquq-mühafizə strukturlarını və məmurlarını hədəfə alaraq hökuməti sanksiyalar tətbiq etməyə çağırır. Bu çağırışlar həqiqətən dini azadlıqların qorunmasına yönəlib, yoxsa geosiyasi təzyiq aləti kimi istifadə olunur?

Əvvəlcədən qeyd edək ki, bu çağırışlar heç də obyektivliyə və hüquqa əsaslanmır. Əksinə, bunlar Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və təhlükəsizlik maraqları nəzərə alınmadan siyasi sifariş əsasında səsləndirilən qərəzli bəyanatlardır. Qarabağ Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazisidir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələr (822, 853, 874, 884) bu bölgənin Azərbaycana məxsus olduğunu təsdiqləyib. 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ilin lokal antiterror tədbirləri nəticəsində isə Azərbaycan bu ərazilər üzərində tam suverenliyini bərpa edib.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı Fatma Yıldırım** XQ-yə bildirdi ki, 2023-cü ilin sentyabrında aparılmış



birgünlük lokal antiterror tədbirlərindən sonra bölgədə Azərbaycanın tam suverenliyi bərpa olunub: "Belə bir şəraitdə xarici təşkilatların, o cümlədən USCIRF-in Qarabağı ayrıca dini-etnik məkan kimi təqdim etməsi və "müstəqil müşahidə" çağırışları suveren dövlətin daxili işlərinə müdaxilə cəhdləridir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Ölkə daxilində fəaliyyət göstərən xristian (pravoslav, katolik, alban-udi), yəhudi və digər dini icmalar üçün hüquqi və praktiki azadlıq təmin edilib. Onlar tam azad şəraitdə yaşayır və öz dini ayinlərini sərbəst şəkildə icra edirlər".

Deputat qeyd etdi ki, Azərbaycanın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərində İslam dini ilə bağlı tarixi abidələr, məscid, ziyarətgahlarla bərabər, xristian və yəhudi məbədlərinin tikintisi və bərpası həyata keçirilir: "Azərbaycanın multikulturalizm siyasəti yalnız sözdə deyil, əməldə də təsdiqlənir. İşğaldan azad edilmiş ərazilərdə İslam abidələri ilə yanaşı, xristian və yəhudi məbədlərinin bərpası aparılır. Bu sahədə mühüm nümunələrdən biri Kəlbəcərdə yerləşən Xudavəng monastır kompleksidir. Bu alban xristian dini abidəsi dövlət mühafizəsinə götürülüb və alban-udi icmasına təhvil verilib. Şuşa şəhərindəki Qazançı kilsəsinin bərpası da Azərbaycanın dini irsə inklüziv yanaşmasının bariz sübutudur. Bu, dini irsə münasibətin obyektiv, qanuni və qoruyucu xarakter daşıdığının və multikultural siyasətin göstəricisidir. Belə olan halda USCIRF-in iddiaları siyasi məqsədlər daşıyır. Başqa sual doğuran məqamlar da var. Məsələn, nəyə görə, Hayastanın həm öz ərazisində, həm də uzun illər işğal altında saxladığı Azərbaycan torpaqlarında bir milyondan çox azərbaycanlını dini və etnik mənsubiyyətinə görə köçkün vəziyyətinə salması, 300-dən artıq məscidin, yüzlərlə qəbiristanlıq və İslam dini abidəsinin təhqir olunması faktları USCIRF gündəminə çıxarılmayıb. Bu cür faktların görməzdən gəlinməsi komissiyanın obyektivliyi barədə ciddi suallar doğurur".

F.Yıldırım dünyada dini zorakılıq hallarının yalnız radikal islamizm kontekstində qabardıldığına, amma xristian ekstremizmi, antisemitizm və digər dini təmayüllü zorakılıqlar barədə susqunluq nümayiş etdirildiyinə diqqəti çəkdi: "Əgər məqsəd obyektiv dini təhlil və hüquqi qiymətləndirmədirsə, bu yanaşma adekvat və ədalətli sayıla bilməz. Belə mövqe yalnız ikili standartlara deyil, həm də bəzi beynəlxalq qurumların siyasi sifariş əsasında hərəkət etdiklərinə dair fikirləri gücləndirir. Bundan əlavə, USCIRF-in sənədlərində "Dağlıq Qarabağ" ifadəsindən istifadə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə və suverenliyinə açıq-aşkar hörmətsizlik kimi qiymətləndirilə bilər. Görünən odur ki, komissiyanın Qarabağla bağlı çağırışları dini azadlıqların müdafiəsindən daha çox siyasi məqsədlərə xidmət edir. Azərbaycanın daxili işlərinə qarışmaq, onun suveren ərazisində beynəlxalq monitorinq tələb etmək və dini məsələləri geosiyasi təzyiq alətinə çevirmək – bunlar istər beynəlxalq hüquqla, istərsə də dini tolerantlığın təşviqi ilə uzlaşmır.

Azərbaycan dövləti və cəmiyyəti multikulturalizm və dini dözümlülük sahəsində nümunəvi təcrübəyə malikdir. Beynəlxalq platformalarda obyektiv və balanslı yanaşma təkcə ölkəmizin maraqlarına deyil, həm də beynəlxalq hüququn prinsiplərinə xidmət edərdi".

Deputat onu da bildirdi ki, əgər məqsəd, həqiqətən, dini irsin qorunması və dindarların hüquqlarının təmin edilməsidirsə, Beynəlxalq Dini Etiqad Azadlıqları Komissiyası tərəfsiz və obyektiv mövqe nümayiş etdirməli, regiondakı bütün dini-mədəni irs nümunələrinə eyni dərəcədə yanaşmalı idi: "Lakin təəssüf ki, reallıq bunun tam əksini göstərir. Komissiyanın Azərbaycana qarşı səsləndirdiyi iddialar qeyri-obyektiv, qərəzli və əsassızdır. Bu yanaşma dini azadlıqların müdafiəsinə deyil, açıq şəkildə ermənilərin maraqlarının müdafiəsinə və islamofob mərkəzlərin təsiri altında hərəkətə xidmət edir. Bu gün Qarabağ regionunda dini və mədəni müxtəlifliyin qorunması Azərbaycan dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizin bu sahədə atdığı addımlar açıq və şəffafdır. Qafqaz Albaniyasına məxsus tarixi irsin məqsədli şəkildə erməniləşdirilməsinə qarşı çıxmaq dini düşmənçilik deyil, əksinə, tarixi ədalətin bərpasıdır. Ermənistanın iddia etdiyi dini abidələrin böyük əksəriyyəti əslində alban–qıpçaq irsinə məxsusdur. Heç bir erməni dini obyektinə qarşı dağıdıcı fəaliyyət olmayıb".

Fatma Yıldırım sonda dedi ki, USCIRF-in bu cür qərəzli yanaşması dini azadlığın müdafiəsi görüntüsünü yaratmaqla yanaşı, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan legitim mövqeyini zəiflətmək, Ermənistanın maraqlarını təşviq etmək məqsədi güdür: "Bu iddialar, eyni zamanda, informasiya müharibəsinin bir hissəsi olaraq tarixi və siyasi reallıqları manipulyasiya etmək cəhdidir. Burada diqqətçəkən əsas məqamlardan biri isə islamofobiya və ikili standartların açıq-aşkar tətbiqidir".

Beləliklə, xarici təşkilatların dini etiqad azadlığı adı altında ölkəmizə qarşı təzyiq göstərməsi qəbuledilməzdir. Azərbaycan beynəlxalq öhdəliklərinə sadiqdir və dini-mədəni irsin qorunması istiqamətində ardıcıl siyasətini davam etdirir. Eyni zamanda, fakt və dəlillərlə pozucu fəaliyyətlərin qarşısı alınacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qazaxıstan Prezidenti TÜRKPA-ya üzv ölkələrin parlament sədrləri ilə görüşüb



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev iyunun 12-də TÜRKPA-ya üzv olan ölkələrin parlament sədrləri ilə görüşüb. Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Azərbaycan parlamentinin sədri Sahibə Qafarova görüşdə iştirak edib.**

Görüşdə Qazaxıstan Prezidenti qeyd edib ki, TÜRKPA ölkələrimizin iqtisadi, mədəni və humanitar inkişafına xüsusi təsir göstərir və onun potensialı xalqlarımızın ümumi məqsədlərinə nail olmaq naminə istifadə olunmalıdır. Türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsində TÜRKPA-nın rolunu qeyd edən Qazaxıstan Prezidenti vurğulayıb ki, müasir çağırışlar fonunda əməkdaşlığın gücləndirilməsi xüsusilə vacibdir.

"Qazaxıstan türk dövlətlərinin parlament diplomatiyasını tam dəstəkləyir. Biz həmrəyliklə bu çətin dövrləri uğurla geridə qoyacaq və iqtisadiyyatlarımızın inkişafına güclü təkan verəcəyik", – deyən Kasım-Jomart Tokayev fikrini yekunlaşdırıb.

# Astanada TÜRKPA Şurasının iclası



**İyunun 12-də Qazaxıstanın paytaxtı Astana şəhərində TÜRKPA Şurasının iclası keçirilib. İclasda TÜRKPA-nın fəaliyyətdə olan sədri, Azərbaycan parlamentinin sədri Sahibə Qafarova çıxış edərək, bu toplantıda aparılacaq fikir mübadiləsinin, qəbul olunacaq qərarların təşkilatın məqsədlərinin həyata keçirilməsinə töhfə verəcəyinə inamını bildirib.**



O, Milli Məclisin təşkilata sədrliyi dövründə görülən işlər haqqında hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırıb. S.Qafarova vurğulayıb ki, ötən dövrdə parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi, TÜRKPA-nın fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində bütün addımlar atılıb.

TÜRKPA-nın başqa beynəlxalq platformalara bənzəmədiyini, eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən qardaş xalqlarımızın təmsilçilərini eyni çətir altında birləşdirən bir təşkilat olduğunu deyən Milli Məclisin sədri bildirib ki, qardaş ölkələrimiz arasındakı əməkdaşlığın gündən-günə inkişaf etdiyi bir dövrdə TÜRKPA-nın səmərəli fəaliyyəti ölkələrimiz arasında birliyin və həmrəyliyin genişlənməsinə parlament dəstəyini təmin edir. Təşkilat həm də Türk dünyasının vahid mövqeyinin beynəlxalq parlament platformalarında eşidilməsinə imkan yaradır.

Sahibə Qafarova deyib ki, Milli Məclisin quruma sədrliyi 13-cü şura iclası zamanı qəbul edilən Fəaliyyət Planı əsasında həyata keçirilib. Ötən dövrdə daimi komissiyaların iclasları Fəaliyyət Planına uyğun olaraq müntəzəm şəkildə keçirilib, üzv ölkələrin qanunvericiliyinin yaxınlaşdırılması istiqamətində fəaliyyət davam etdirilib. Vahid hüquqi məkanın formalaşması prosesinin önəmli aspekti olan model qanunların hazırlanması istiqamətində fəaliyyət böyük səylə davam etdirilib.

Sonra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib, həmçinin təşkilata sədrlik Qazaxıstana keçib.

*

**Milli Məclisin sədri Sahibə Qafarova iyunun 12-də Qazaxıstanın paytaxtı Astana şəhərində TÜRKPA-nın 14-cü plenar iclasından sonra keçirilən mətbuat konfransında iştirak edib.**

Sahibə Qafarova TÜRKPA-ya sədrliyin Azərbaycan Respublikası Milli Məclisindən Qazaxıstan Respublikası Parlamenti Məclisinə keçdiyini xatırladaraq, bu sədrliyin təşkilatın daha da güclənməsinə, ümumi işimizin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Milli Məclisin TÜRKPA çərçivəsində əməkdaşlığa böyük önəm verdiyini deyən Sahibə Qafarova bildirib ki, Azərbaycanın qardaş ölkə parlamentləri ilə ikitərəfli və çoxtərəfli əlaqələrinin əsasını Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" fikri təşkil edir.

Sahibə Qafarova qeyd edib ki, Türk əməkdaşlıq təşkilatları bu birliyin möhkəmlənməsində mühüm rol oynayır. Türk Dövlətləri Təşkilatının dövlət başçılarının iştirakı ilə keçirilən Zirvə görüşləri, həmçinin qeyri-rəsmi zirvələrin təşkili də bu gündəliyin genişliyini göstərir. Bu təşəbbüslərin müəllifi isə Azərbaycan Prezidenti İlham Əliyevdir. Belə ki, ilk qeyri-rəsmi Zirvə görüşü 2023-cü ilin iyul ayında Azərbaycanın mədəniyyət paytaxtı, işğaldan azad olunmuş Şuşa şəhərində, növbətisi isə cari ilin mayında Macarıstanın paytaxtı Budapeştdə baş tutub.

*XQ*

# Hikmət Hacıyev: Azərbaycan ilə İordaniya arasında dərin münasibətlər mövcuddur




**Azərbaycan ilə İordaniya arasındakı münasibətlər bütün səviyyələrdə və sahələrdə güclü və dərindir.**

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İordaniyanın PETRA xəbər agentliyinə müsahibəsində bildirib.

Hikmət Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevlə İordaniya Kralı II Abdullah arasında yaxın və davamlı qarşılıqlı əlaqələri ikitərəfli əməkdaşlığın əsas təməli kimi qiymətləndirib.

Prezidentin köməkçisi, həmçinin ötən il Krallığın Vəliəhd Şahzadəsi II Əl-Hüseyn bin Abdullahın Bakıya səfərini və COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əhəmiyyətini vurğulayıb. O, görüşdə aparılan müzakirələri ikitərəfli əməkdaşlığın irəli aparılması üçün məhsuldar və mühüm addım kimi dəyərləndirib.

H.Hacıyev qeyd edib ki, hər iki ölkə beynəlxalq platformalarda sıx koordinasiyanı davam etdirir və qarşılıqlı maraq doğuran məsələlərdə, o cümlədən Fələstin məsələsində ortaq mövqe sərgiləyir.

*XQ*

# Vilayət Eyvazovun sıra baxışı



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 12-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib. Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.**

Məlumata əsasən, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 138 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*XQ*

# Ermənistanın mina cinayətləri məhkəmədə açıqlanıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 12-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyan 2016-cı ildə baş vermiş və şərti olaraq "Aprel döyüşləri" adlandırılan hadisələrlə bağlı dövlət ittihamını müdafiə edən prokurorun növbəti suallarını cavablandırıb. Təqsirləndirilən şəxs Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab olaraq bildirib: "Kəndə hücum olmayıb. Kəndə atəş açmamışıq".

Məhkəmədə L.Mnatsakanyanın Aprel döyüşləri ilə bağlı jurnalistlərə verdiyi müsahibəsindən bəzi hissələr də tədqiq edilib. O, Aprel döyüşlərindən sonra verdiyi müsahibədə "Ümumi vəziyyət nəzarət altındadır, qoşunların döyüş hazırlığı müvafiq səviyyədədir, sərhədlərimiz möhkəmdir və etibarlı əllərdədir" – deyir. L.Mnatsakanyan jurnalistin "Düzdür ki, qarşı tərəf də müdafiə olunur?" sualına "Bəli" cavabını verir.

Bu zaman dövlət ittihamçısı xatırladıb ki, L.Mnatsakanyan məhkəmədəki sərbəst ifadəsində Aprel döyüşləri zamanı fikir bildirmədiyini deyib: "Lakin videodan görünür ki, mətbuatda da fikirlər bildirmisiniz". Prokurorun "Müsahibədə barəsində danışdığınız qarşı tərəf kimdir və sizin hansı hücumunuzdan müdafiə olunur?" sualına isə L.Mnatsakanyan konkret cavab verməyib.

Məhkəmədə L.Mnatsakanyanın verdiyi daha bir müsahibə nümayiş etdirilib. Videogörüntülərdə o, Cıdır düzündə jurnalistin suallarını cavablandırır. L.Mnatsakanyan müsahibədə 2015-ci il fevralın 24-dən 25-nə keçən gecə baş vermiş döyüşlər və 2016-cı ildə baş vermiş Aprel döyüşləri barədə deyir: "Təkmilləşdirmək o deməkdir ki, əlimizdə olan imkanları daha da gücləndirməliyik. Əlimizdəki atəş vasitələrinin və sistemlərinin imkanlarını genişləndirməliyik. Bu istiqamətdə bizdə müvafiq işlər aparılır. Xüsusilə müşahidə cihazları sahəsində genişləndirmə işləri aparırıq. Həm atəş, həm də məhvetmə sistemləri üzrə irəliləyişlər əldə olunub. Bəzi məhdud sahələrdə müəyyən çatışmazlıqlarımız olub, amma indi - istər səhər, istər gündüz - biz səmərəli şəkildə atəş aça bilirik".

Fasilədən sonra məhkəmədə internet resurslarından götürülmüş növbəti videomaterial nümayiş etdirilib və tədqiq olunub. Media materialında qondarma rejimin "müdafiə naziri" Levon Mnatsakanyan və keçmiş "müdafiə naziri" Samvel Babayan bir-birilərini ittiham edirlər. Videomaterialda L.Mnatsakanyan S.Babayanı 1994-cü ildə "Azərbaycan tərəfinə 21 kilometr ərazi verməkdə" günahlandırır. Məlum olur ki, S.Babayan əvvəlki müsahibələrindən birində Aprel döyüşləri zamanı erməni tərəfinin ciddi səhvlərə yol verdiyini bildirib.

Tədqiq edilən növbəti videomaterialda Ermənistanın sabiq baş naziri Karen Karapetyanın və qondarma rejimin "baş naziri" Arayik Harutyunyanın Azərbaycanın vaxtilə işğalda olan ərazilərində hərbçilərlə görüşdüyü görünür. L.Mnatsakanyan videomaterialla əlaqədar bildirib ki, vaxtilə Ermənistandan bir çox rəsmi şəxslər, habelə müdafiə və xarici işlər nazirləri də həmin ərazilərə səfərlər ediblər.

Nümayiş etdirilən növbəti videomaterialda Ermənistanın sabiq müdafiə naziri Davit Tonoyanın qondarma rejimin "hərbi qurum"undakı vəziyyətlə tanış olduğu görünür. Keçirilən müşavirədə hərbçilərdən əlavə Ermənistanın sabiq xarici işlər naziri Zöhrab Mnatsakanyan və qondarma rejimin "xarici işlər naziri" də iştirak ediblər.

Azərbaycan ərazilərinin minalanması barədə sualları cavablandırarkən deyib ki, minalar iki istiqamətdə – şimal və cənub istiqamətlərində basdırılıb. Minalar yerləşdirildikdən sonra formulyarlar yuxarı qərargaha təqdim edilib: "Formulyarın bir nüsxəsi isə hərbi hissədə qalırdı. Qalan bütün formulyarlar mühəndis qoşunları idarəsində olub".

O, formulyarla bağlı bildirib ki, bu, mina basdırılan ərazinin böyük dəqiqliklə sxemidir, mina xəritəsində isə dəqiqlik yoxdur: "Orada rayonlar göstərilib ki, harada minalar var. Amma formulyarda minanın konkret yerini bilmək mümkündür".

L.Mnatsakanyan Azərbaycan ərazilərində hansı minaların basdırılması barədə sualı isə belə cavablandırıb: "Başlanğıc mərhələdə Sovet İttifaqında istehsal olunmuş minalar basdırılıb. Sonrakı mərhələdə Rusiya Federasiyasından alınıb, Ermənistan vasitəsilə bizə verilib. Son dövrlərdə isə Ermənistan Respublikasında da istehsal olunurdu və bizə verilirdi. Minaların növləri piyada əleyhinə və tank əleyhinə minalar idi".

Məhkəmə prosesi iyunun 13-də davam etdiriləcək.

*XQ*

# TDT-nin Bakıda Orta Dəhliz müzakirəsi

## *Geosiyasətdən rəqəmsal keçidə, ailədən "yaşıl" inkişafa*



**Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin ikinci iclası çərçivəsində "Orta Dəhliz 360°: Geosiyasətdən rəqəmsal transformasiyaya, ailədən yaşıl inkişafa" adlı yan iclas keçirilib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının moderatorluğu ilə keçirilən toplantıda Orta Dəhlizin çoxölçülü xarakteri əhatəli şəkildə təhlil edilib. Geosiyasi sabitlik və regional təhlükəsizlikdən başlayaraq, mədəni inteqrasiya, rəqəmsal platformalar və enerji təhlükəsizliyi kimi məsələlər panelin əsas müzakirə mövzusu olub.

İclasda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın sözlərinə görə, Azərbaycan beynəlxalq ictimai-siyasi proseslərin içərisində elə bir özünəməxsus yer tutub ki, onun təcrübəsi hər kəs üçün maraqlıdır. Bunu şərtləndirən bir sıra təbii əsaslar var. Bunlar bizim yerləşdiyimiz region, malik olduğumuz sərvətlər, resurslar, eləcə də dünyanın maraqları naminə atdığımız ciddi addımlardır. Bu addımlar bütün insanlığın, beynəlxalq ictimaiyyətin maraqlarına xidmət edir.

Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş bildirib ki, Orta Dəhliz dünyada rifahı yaxşılaşdırmaq üçün ortaq vizyonun təməlini təşkil edir. Orta Dəhliz, eyni zamanda, Orta Asiya coğrafiyası ilə sinerji yaradıb, həmçinin tarixi köklərimizi birləşdirən qədim mədəniyyət yoludur.

Ailənin cəmiyyətin onurğasını təşkil etdiyini bildirən türkiyəli nazir müasir dövrdə ailə dəyərlərinin bir sıra problemlərlə üz-üzə qaldığını vurğulayaraq deyib: "Bu gün cəmiyyətin təməl dirəyi olan ailələrin üzərinə önəmli vəzifələr düşür. Gələcək nəsilləri sağlam fərdlər olaraq yetişdirməliyik. Sürətlə dəyişən dünyada hamımızın üzərinə düşən vəzifələr var. Türk dünyasında ailə siyasətlərinin daha da dərinləşdirilməsinə xidmət edən bu tədbirin ailə dəyərlərimizi gücləndirəcəyinə ümid edirik".

Şimali Kipr Türk Respublikasının əmək və sosial müdafiə naziri Sadık Qardiyanoğlu Türk dünyasının ailə dəyərlərinə söykənən birliyinə inandıqlarını söyləyib. O əlavə edib ki, ailə cəmiyyətimizin bünövrəsidir. Uşaq hüquqlarının qorunması, qadınların sosial-iqtisadi həyatda fəal iştirakı, ahıl və əlillərin cəmiyyətə inteqrasiyası istiqamətində ortaq proqramlar vacibdir. S.Qardiyanoğlu qeyd edib ki, yaşıl transformasiya bu günün və gələcəyin məsələsidir. Sosial siyasət iqlim dəyişikliyinə qarşı dayanıqlı olmalıdır. Ətraf mühitə uyğun əmək bazarları və ekoloji məsuliyyətli sosial proqramlar bu baxımdan hər kəsin prioritetidir.

TDT Baş katibinin müavini Ömər Kocaman bildirib ki, artıq inkişaf edən dünya iqtisadiyyatında "Orta Dəhliz" adlı bir reallıq var. İstehsal edən bir Çin var və o, istehsal etdiyi məhsulları dünya bazarlarına çıxarmaq üçün müxtəlif yollar axtarır. Təkcə dəniz yolu, şimal yolu ilə yox, bu gün bizim üzərində çalışdığımız Orta Dəhliz vasitəsilə də məhsullarını Avropa və dünya bazarlarına çıxarmaq istəyir. Həqiqətən də apardığımız təhlil və araşdırmalara əsasən, Çinlə Avropa arasında ən qısa və ən təhlükəsiz yol Türk Dövlətləri Təşkilatının üzv ölkələri üzərindən keçir. Ölkələrimiz bu günə qədər bu sahəyə çox ciddi sərmayələr yatırıb.

Milli Məclisin deputatları Tahir Mirkişili və Fazil Mustafa diqqətə çatdırıblar ki, biz öz tarixi köklərimizə nə qədər bağlı olsaq da, əgər texnologiya və iqtisadi inkişaf sahəsində geridə qalsaq, dünyada liderliyə iddia etmək imkanımız məhdud olar. Ona görə də bu gün iqtisadiyyatımızın və texnologiyanın inkişafı çox vacibdir.

Bildirilib ki, biz tarixdən dərs çıxarmalıyıq. Sivilizasiyanın mərkəzinin Çin olduğu dövrlərdə Göytürklərin çinləşməsi onların imperiyasının tarix səhnəsindən silinməsi ilə nəticələndi. Bu mənfi təcrübə diqqətlə öyrənilməli və təkrar olunmamalıdır.

Energetika nazirinin müavini Elnur Soltanov "Orta Dəhliz" mövzusunu daha geniş mənada gördüyünü ifadə edib. Bildirib ki, Azərbaycan üçün bu dəhliz çox böyük konsepsiyanın xüsusi bir ifadəsidir. O qeyd edib ki, biz adətən cəmiyyət və fərddən danışırıq, amma əslində, ailə olmadan nə fərd, nə də cəmiyyət mövcud ola bilər. Ailə cəmiyyətlə fərdi birləşdirən və onlara mənəvi dəyər qazandıran əsas məfhumdur.

E.Soltanov daha sonra qeyd edib ki, neft inqilabının önündə gələn ölkə, şübhəsiz ki, Azərbaycandır. Sənaye inqilabını neft inqilabı olmadan, neft inqilabını isə Azərbaycansız təsəvvür etmək mümkün deyil. Lakin bu dövr ölkəmizin müstəqil olmadığı illərə təsadüf edir və həmin vaxtlar ənənəvi enerji resurslarımızın əhəmiyyətli hissəsi Azərbaycanın deyil, başqalarının maraqlarına xidmət edirdi. Ancaq müstəqilliyimizin bərpasından sonra Azərbaycan bu enerji resurslarından son dərəcə ağıllı şəkildə istifadə edərək, həm müstəqilliyini möhkəmləndirdi, həm də nəhayət, öz torpaqlarını azad etməyə nail oldu", - deyə energetika nazirinin müavini vurğulayıb.

# Əqli mülkiyyət və biznes

**Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə "İqtisadi artım və rəqabətqabiliyyətlilik üçün əqli mülkiyyət aktivlərindən istifadə etmək məqsədilə Azərbaycanın aqrar-ərzaq sektorunda mikro və kiçik biznesin dəstəklənməsi" layihəsi başa çatıb.**



Bununla bağlı keçirilən mərasimdə Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin üzvü Sənan Tapdıqov Azərbaycanda sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində görülən işlər barədə məlumat verib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən islahatların iqtisadi fəallığın və sərbəst rəqabətin gücləndirilməsinə yönəldiyini vurğulayıb. O, layihənin vacibliyinə toxunaraq qeyd edib ki, bu işin reallaşdırılması ideyası 2023-cü ilin iyun ayında ÜƏMT-nin baş direktorunun müavini Hasan Kleybin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı aparılan müzakirələr nəticəsində formalaşıb. Onun sözlərinə görə, mikro və kiçik biznes subyektləri belə layihə imkanlarından yararlanaraq bazarda rəqabət qabiliyyətliliyini artırır və dayanıqlı mövqe qazanırlar.

KOBİA-nın İdarə Heyətinin sədr müavini Emil Hüseynli ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin və geniş imkanların yaradıldığını vurğulayıb. Əqli mülkiyyət hüquqlarının qorunmasının biznesin inkişafında mühüm rol oynadığını vurğulayan sədr müavini bu hüquqların sahibkarlara öz innovativ məhsul və xidmətlərinin bazarda rəqabət qabiliyyətini artırmağa imkan verdiyini diqqətə çatdırıb.

ÜƏMT-nin əqli mülkiyyətin inkişafı bölməsinin rəhbəri, əqli mülkiyyətin inkişafı üzrə layihə meneceri Lorena Bolanos Pacheco layihənin həyata keçirilməsində dəstəyə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə təşəkkürünü bildirib. O, əqli mülkiyyətin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və iqtisadi inkişafın təşviqindəki rolunu vurğulayıb.

Bağlanış sessiyasında çıxış edən ÜƏMT-nın Mərkəzi Avropa, Baltikyanı və Aralıq dənizi ölkələri üzrə bölməsinin əməkdaşı Mihaela Cerbari Simmons həyata keçirilən layihənin məqsədi haqqında məlumat verib.

Türkiyəli beynəlxalq ekspert Arife Yılmaz Topal isə çıxışında əqli mülkiyyətin aqroərzaq biznesində aktuallığı, aqroərzaq sənayesi üçün coğrafi göstəricilər və onların əhəmiyyəti, eləcə də sözügedən sahədə əqli mülkiyyətin kommersiyalaşdırılması strategiyalarından danışıb.

Sonra Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin əməkdaşı Gülcahan Əlimərdanovanın "Azərbaycanın aqrar-ərzaq sektorunda mikro və kiçik sahibkarlıq subyektlərinə iqtisadi artım və rəqabət qabiliyyətlilik üzrə dəstək" mövzusunda təqdimatı olub. Görüşdə, həmçinin benefisiarlara əmtəə nişanları və bir coğrafi göstəricinin qeydiyyatı haqqında şəhadətnamələr, eləcə də bir sənaye nümunəsi üzrə patent təqdim edilib.

Sonda əqli mülkiyyətin innovativ sahibkarlığın təşviqindəki rolu ilə bağlı fikir mübadiləsi aparılıb.

# "Dairəvi iqtisadiyyat və dayanıqlı ekosistem"



**İyunun 12-də VII İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı öz işinə başlayıb. UNEC-in 95 illik yubileyi münasibətilə builki konfrans "Dairəvi iqtisadiyyat və dayanıqlı ekosistem" mövzusuna həsr olunub.**

Konfrans iştirakçıları öncə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül dəstələri düzüblər, Ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən konfransın açılışında UNEC rektoru, professor Ədalət Muradov çıxış edərək builki konfransda 24 ölkədən 57 xarici tədqiqatçının iştirak etdiyini, konfransa təqdim olunan elmi məqalələrdən 224-nün seçilərək xülasələr kitabına daxil edildiyini diqqətə çatdırıb. UNEC-in strateji hədəflərindən söz açan rektor universitetin bu hədəflərə doğru inamla irəlilədiyini bildirib. O, rəhbərlik etdiyi ali təhsil müəssisəsinin elmi fəaliyyətinə dair statistik məlumatları bölüşərək "Web of Science" və "Scopus" indeksli elmi məqalələrin sayının artım tempinə görə dünyada lider olduğunu deyib.

Ə.Muradov ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nda təhsil və elm sahəsində süni intellektin tətbiqi ilə bağlı məsələlərə geniş yer ayrıldığını vurğulayaraq UNEC-də bu istiqamətdə həyata keçiriləcək layihələrdən bəhs edib. 2024-cü ilin ikinci yarısından etibarən universitetdə elmi fəaliyyətin rəqəmsallaşdırılması layihəsinə start verildiyini xatırladan rektor bu sistemin elmi fəaliyyətin rəqəmsal əsasda idarə olunması, maliyyələşdirilməsi və stimullaşdırılmasına xidmət edəcəyini diqqətə çatdırıb. Rəqəmsal platformanın bir neçə əsas funksiyanı özündə birləşdirəcəyini bildirən Ə.Muradov deyib ki, bu platforma elmi fəaliyyətin effektiv və şəffaf idarə olunmasını təmin etməklə yanaşı, məqalə və istinad sayı, qrantlar və digər fəaliyyətlərin illik performans dəyərləndirməsini asanlaşdıracaq.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli ali təhsilin əsas hədəflərindən söz açaraq bu istiqamətlərdən birinin də beynəlxalq reytinqlərdə irəliləməkdən ibarət olduğunu vurğulayıb. Bununla bağlı sistemli yanaşmanın və kompleks çalışmanın vacibliyini diqqətə çatdıran nazir müavini belə yanaşma nəticəsində yaxın dövrdə təhsildə və elmi fəaliyyətlərdə beynəlxalq rəqabətədavamlı uğurlar əldə ediləcəyinə əminliyini ifadə edib. Bu prosesdə tədqiqatçıların rolunu yüksək qiymətləndirən H.Həsənli konfransın bu mənada əhəmiyyətli rol oynayacağını xatırladıb.

Xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev çıxışında COP 29-un uğurlu nəticələrindən və Azərbaycanın bu tədbirə verdiyi töhfələrdən danışıb. Konfransın mövzusunun aktuallığına diqqət çəkən nazir müavini COP-da irəli sürülmüş 14 təşəbbüsün 3-nün enerji ilə bağlı olduğunu və konfransın məhz həmin mövzuları əhatə etdiyini diqqətə çatdırıb. Y.Rəfiyev konfransda səsləndiriləcək fikirlərin ölkəmizin davamlı və dayanıqlı inkişafına mühüm töhfələr verəcəyindən əminliyini ifadə edib.

UI GreenMetric Dünya Universitetləri reytinqinin təsisçisi professor Riri Fitri Sari 2010-cu ildən fəaliyyət göstərən reytinqin universitetlərin ekoloji dayanıqlılıq və yaşıl təşəbbüslər sahəsində fəaliyyətlərinin qiymətləndirilməsində mühüm rol oynadığını deyib. O, UI GreenMetricsin təkcə rəqabət deyil, həm də universitetlər arasında əməkdaşlıq və təcrübə mübadiləsi üçün əvəzsiz platforma olduğunu qeyd edərək bunda da əsas məqsədin ali təhsil müəssisələrinin davamlı inkişaf prinsiplərinə uyğun fəaliyyətini təşviq etməkdən ibarət olduğunu bildirib.

Azərbaycan universitetlərinin davamlılıq sahəsində əldə etdiyi nailiyyətlərə diqqət çəkən təsisçi, COP29 çərçivəsində Azərbaycanın təqdim etdiyi proqramların beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini qeyd edib. O, universitet rəhbərləri, akademik heyət və tələbələr üçün əməkdaşlıq mühitinin yaradılmasının cəmiyyət, planet və iqtisadi rifah arasında balanslı inkişafı təmin etmək baxımından vacibliyini diqqətə çatdırıb.

Sonra "Regional İnkişaf" İctimai Birliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin müdiri Gülbağda Leysanova və "Weevo Srl Benefit" şirkətinin həmtəsisçisi Gabriele Carboni mövzu ilə bağlı təqdimatlarla çıxış ediblər.

Çıxışlardan sonra iştirakçılar "Xülasələr toplusu", "Akademik yazı", eləcə də Azərbaycan dilinə tərcümə olunmuş "Bazarın hüdudları", "Dayanıqlı enerji", "Dairəvi iqtisadiyyat" kitablarının sərgisi ilə tanış olublar.

Konfransın ikinci hissəsində "COP29 Azərbaycan töhfəsi: İqlim dəyişikliyi və maliyyələşdirilməsi, resurslardan səmərəli istifadə" və "Dairəvi iqtisadiyyatin drayverləri: Rəqəmsal transformasiya və dayaniqli ekosistem" mövzuarında panel sessiyalar olub. Birinci paneldə iqlim dəyişikliyinə qarşı mübarizədə Azərbaycanın mövqeyi və COP29 kontekstində maliyyə mexanizmləri müzakirə olunub. Digər paneldə isə dairəvi iqtisadiyyatın inkişafına təkan verən əsas amillərdən bəhs edilib, həmçinin rəqəmsal texnologiyalar, innovasiya və ekoloji dayanıqlılıq mövzularında fikir mübadilələri aparılıb.

Konfrans öz işini iyunun 13-14-də panel müzakirələr və vörkşoplarla davam etdirəcək. Müzakirələr süni intellekt, iqtisadi sistemlərin optimallaşdırılması, dairəvi iqtisadiyyatda gender bərabərliyi və sosial inklüzivlik, sosial məsuliyyətli və dayanıqlı biznes modelləri, dairəvi iqtisadiyyatın təşviqində təhsilin rolu, istehlakçı məlumatlılığı və dayanıqlı məhsul seçimi, eko-innovasiyalar, yaşıl texnologiyalar, dayanıqlı istehlak və istehsal (SCP) siyasətinə həsr olunacaq.

# Taxıl mövsümü başlanıb

## *1 milyon hektar zəminin taxılı biçiləcək*



**Kənd Təsərrüfatı Nazirliyi bölgələrdə taxıl biçininin gedişi, mövcud vəziyyət və qarşıda duran vəzifələrlə bağlı məlumatlandırma sessiyalarını davam etdirir. Həmin toplantılar çərçivəsində nazirliyin rəhbər şəxslərinin iştirakı ilə regional müşavirələr keçirilir.**

Ölkədə taxıl biçininin gedişatına həsr olunmuş növbəti regional müşavirə Cəlilabad rayonunda keçirilib. Müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi, Cəlilabad və ətraf rayonların icra hakimiyyəti strukturlarının məsul şəxsləri, dövlət aqrar inkişaf mərkəzlərinin direktorları, "Aqroservis" ASC-nin rəhbər şəxsləri və regional nümayəndəliklərinin, rayon bölmələrinin əməkdaşları, texniki nəzarət müfəttişləri, mühəndislər, mexanizatorlar və fermerlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov bildirib ki, ölkədə taxılçılığın inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətlərindən biri kimi nəzərdə tutulur. Bu sahənin inkişafına dövlət dəstəyinin genişləndirilməsi sayəsində ölkədə taxılçılıq ildən-ilə inkişaf edir. Cəlilabadın ölkənin ən böyük taxılçılıq rayonlarından biri olduğunu diqqətə çatdıran R.Cəlilov əvvəlki illərdə olduğu kimi, bu il də biçin prosesinin mütəşəkkil şəkildə başa çatdırılması üçün lazımi tədbirlərin görüldüyünü bildirib.

Taxıl biçininin mütəşəkkil başa çatdırılması üçün müşavirə iştirakçılarına məlumat verən kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov qeyd edib ki, nazirlik tərəfindən respublikanın bölgələrində taxıl biçininin qısa müddətdə, məhsul itkisinə yol verilmədən həyata keçirilməsi, təsərrüfat sahiblərinin taxılyığan kombaynlarla təmin edilməsi ilə bağlı onlara lazımi köməyin göstərilməsi üçün bir sıra zəruri tədbirlər həyata keçirilib. Bölgələrdə taxıl biçininin mütəşəkkil qaydada və optimal müddətdə biçilib başa çatdırılması üçün "Aqroservis" ASC və digər fiziki və hüquqi şəxslərin balansında olan kombaynların gündəlik dislokasiya planı hazırlanıb, ölkə ərazisində yanğınlara qarşı qabaqlayıcı tədbirlərin səmərəliliyini artırmaq məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən aidiyyəti qurumların, həmçinin fiziki və hüquqi şəxslərin iştirakı ilə regionlarda müşavirələr keçirilib.

Müşavirədə çıxış edən nazirliyin yerli qurumlarının rəhbərləri hazırda Cəlilabad, Neftçala və Biləsuvar rayonları üzrə əkin aparılmış 124 min 800 hektar sahənin 27 faizində biçin prosesinin başa çatdığını, taxıl yığımına 256 kombaynın cəlb edildiyini diqqətə çatdırıblar. Qeyd olunub ki, biçin prosesinin optimal müddətdə başa çatıdırlması üçün yerli qurumlar tərəfindən koordinasiyalı fəaliyyət həyata keçirilir.Toplantıda, həmçinin biçin zamanı qarşıya çıxa biləcək çətinliklər, onların həlli yolları müzakirə edilib, fermer və mexanizatorların təklifləri dinlənilib, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

Müşavirə iştirakçıları Cəlilabad rayonunun Üçtəpə kəndində taxıl biçininin gedişi ilə də tanış olublar, fermerlərlə görüşüblər. Bildirilib ki, mövsum ərzində Cəlilabad rayonu üzrə 60,4 min hektar sahədə taxıl əkilib. Bunun da 47 min hektarı buğda, 13,4 min hektarı isə arpa sahələridir. Bu günə kimi 8 min hektar sahədə biçin başa çatıb, zəmilərdən 24,7 min ton taxıl yığılıb. Hazırda biçin prosesinə 90 kombayn cəlb edilib ki, onların da 17-si "Aqroservis" ASC-yə, 73-ü isə hüquqi və fiziki şəxslərə məxsusdur.

Müşavirə iştirakçıları sahələrdə məhsuldarlığın vəziyyəti ilə əyani tanış olub, məhsulun vaxtında və itkisiz yığılması üçün görülən işlər barədə fermerləri məlumatlandırıblar.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Çağdaş türk ailəsi Turanın etnososial təməlidir





**Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin ikinci iclası başa çatıb.**

Tədbirdə Azərbaycan Respublikası Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri **Fərəh Əliyeva Prezident İlham Əliyevin iclas iştirakçılarına müraciətini oxuyub.** (Müraciət qazetimizin bugünki sayında dərc olunub).

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri **Bahar Muradova** vurğulayıb ki, ailə anlayışı türk coğrafiyasında sədaqət və fədakarlığın simvoludur. Onun sözlərinə görə, Qarabağ Zəfərindən sonra 2615 ailə, yəni, 10 min 233 vətəndaş işğaldan azad edilmiş ərazilərə köçürülüb. 2026-cı ilin sonuna qədər 34 min 500 ailənin, o cümlədən 140 min vətəndaşın köçürülməsi nəzərdə tutulub.

Daha sonra iclas çərçivəsində nazirlərin görüşü baş tutub.

Görüşdə Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** türk dövlətlərinin yaşıl iqtisadiyyat, turizm, təhlükəsizlik, ekoloji layihələr və bir çox digər sahədə birgə fəaliyyətlərini genişləndirməyin vacib olduğuna diqqət çəkib. Baş katib bu sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin bölgəmizin davamlı inkişafı və rifahı baxımından mühüm əhəmiyyət daşıdığını deyib.

Türkiyə ailə və sosial xidmətlər naziri **Mahinur Özdemir Göktaş** qadınların sosial proseslərdə fəal iştirakının müasir dövrün əsas çağırışlarından biri olduğunu vurğulayıb. Onun sözlərinə görə, qadınların sahib olduqları bilik, bacarıq və liderlik keyfiyyətləri bu gün regional və qlobal miqyasda ümidverici həllərin ortaya çıxmasına səbəb olur. Beynəlxalq səviyyədə qadın liderlərin ön plana çıxdığını müşahidə edirik.

Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyinin Gənclik və Ailə İşləri Komitəsinin sədri **Kayrat Kambarov** türk dövlətləri olaraq bizi birləşdirən dərin mənəvi köklərin, ortaq tarix və ailə dəyərlərinin bu gün də fəaliyyətimizin əsasını təşkil etdiyinə diqqət çəkib. O qeyd edib ki, qadınlara hər sahədə dəstək vermək cəmiyyətin sağlam inkişafının ayrılmaz hissəsidir. Qadınlar yalnız ailənin deyil, bütövlükdə cəmiyyətin 51 faizini təşkil edirlər. Onların sosial, iqtisadi və siyasi həyatda fəal iştirakı gələcəyimiz üçün son dərəcə vacibdir.

Qırğızıstanın əmək, sosial təminat və miqrasiya nazirinin müavini **Kıyal Januzakova** bildirib ki, qadınların inkişafı və sosial siyasətdə inklüziv yanaşmalar prioritet hədəflərimizdəndir. Onun sözlərinə görə, əlilliyi olan şəxslərin hüquqlarının qorunması istiqamətində də mühüm nailiyyətlər qazanılıb.

Özbəkistanın əmək və yoxsulluğun azaldılması naziri **Rano Turdiboeva** qeyd edib ki, qadınlar tarixən ailə ocağının təməlini formalaşdıran, onu qoruyan və gələcəyə daşıyan əsas sütunlardan biri olub. Müasir dövrdə isə qadınların rolu yalnız ailə ilə məhdudlaşmır, onlar cəmiyyətin hər bir sahəsində, xüsusilə idarəetmədə və ictimai həyatda fəal şəkildə təmsil olunurlar.

Türkmənistanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini **Halbibi Taçjanov** ailə və sosial siyasət sahəsində görülən işlər, qadınların cəmiyyətdəki rolu və sosial müdafiə tədbirləri barədə ətraflı məlumat verib.

Şimali Kipr Türk Respublikasının əmək və sosial müdafiə naziri **Sadık Qardiyanoğlu** isə qeyd edib ki, Azərbaycanda keçirilən bu iclas, qadınların və ümumilikdə cəmiyyətin gələcəyi üçün əməkdaşlıq və həmrəylik içində çalışdığımızın bariz nümunəsidir.

Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin ikinci iclasının yekununda Kommünike qəbul olunub.

Sonda təşkilata üzv dövlətlərin nümayəndələri tərəfindən türk dövlətlərinin milli atributlarından ibarət sərgiyə baxış keçirilib.

*Z.HÜSEYNOVA*
*XQ*

# Türk dövlətlərində ailə modelləri: sosial-fəlsəfi təhlil

***I məqalə***

### Türk ailəsi tarixi rakursda

Türk dünyası tarix boyu coğrafi baxımdan geniş bir sahəyə yayılmaqla yanaşı, mənəvi baxımdan da ortaq köklərə, dəyərlərə və düşüncə sisteminə sahib olan mədəniyyət coğrafiyasıdır. Bu coğrafiyanı bir araya gətirən əsas mərkəzlərdən biri, şübhəsiz ki, ailə institutudur. Ailə yalnız sosial bir vahid deyil, eyni zamanda, insan varlığının, dəyərlər sisteminin və mənəvi formalaşmanın bünövrəsi kimi dərk olunur.

Qədim türk mifologiyasından bu günə qədər ailə modeli həm fərdi, həm də ictimai həyatın ən dərin qatlarına nüfuz edən mənəvi bir daşıyıcıdır. Müasir türk dövlətlərində bu model zamanla müxtəlif transformasiyalara uğrasa da, onun əsas mahiyyəti – birlik, fədakarlıq və kimlik üzərində qurulan struktur – dəyişməz qalıb. Bu gün ailə anlayışı təkcə sosioloji deyil, eyni zamanda etik bir çərçivədə də əhəmiyyət kəsb edir.

Qədim türk mifologiyasında ailə ilahi bir harmoniya modelidir. Oğuz Kağan dastanında ailə başçısı olan Kağan həm siyasi, həm də mənəvi lider kimi çıxış edir. Bu, ailənin yalnız bioloji deyil, eyni zamanda ruhi və ideoloji birlik olduğunu göstərir. Türk dünyasında ailəyə yanaşmada daha çox “təbii, əzəli, dəyişməz” – yəni ailənin insan ruhuna yazılmış ilahi bir quruluş olduğu düşüncəsi önə çıxır. Bu baxış ailəni dəyişkən və sosial təsadüflərin məhsulu kimi deyil, insan varlığının təbii davamı və mənəvi dayağı olaraq dərk edir.

### Türk ailə modelinə elmi yanaşma

Ailə tarix boyu mütəfəkkirlərin diqqət mərkəzində olan mühüm mövzudur. Xüsusilə Şərq düşüncəsində ailə yalnız sosial struktur deyil, mənəvi və ilahi nizamın daşıyıcısı kimi qəbul olunur. Bu fəlsəfi və mədəni zəmini başa düşmək müasir Türk dövlətlərində ailə modelini dərk etmək üçün vacibdir.

Türk-İslam düşüncəsində ailə fərdin formalaşmasında ilk və ən təsirli mühit kimi qiymətləndirilir. Bu baxımdan ailə yalnız bioloji və hüquqi bir qurum deyil, həm də əxlaqi, psixoloji və sosioloji təsir gücünə malik məktəb funksiyası daşıyır. Ailənin bu kompleks rolu müxtəlif elmi sahələrdən araşdırılmasını zəruri edir. Sosiologiya, psixologiya, antropologiya və fəlsəfə kimi sahələr ailənin strukturunu, funksiyalarını və cəmiyyətə təsirini fərqli aspektlərdən tədqiq edirlər.

Məsələn, Şeyx Şəmsəddin Yəsəvi öz hikmətlərində ailəni mənəvi tərbiyənin beşiyi kimi təsvir edir və ailə bağlarının qorunmasını insanın daxili saflığı ilə əlaqələndirir. Onun fikrincə, ailə daxilindəki sevgi, mərhəmət və qarşılıqlı hörmət insanın Allahla əlaqəsinin güzgüsüdür.

Əl-Fərabi isə “Fazil şəhər” modelində ailəni cəmiyyətin əxlaqi əsaslarının formalaşdığı ilk mərhələ kimi təqdim edilirdi. O yazır ki, insan ideal cəmiyyətə doğru yolunu ailədə öyrəndiyi dəyərlər vasitəsilə tapır. Ailə ictimai məsuliyyətin də öyrədildiyi ilkin məkan kimi çıxış edir.

Antik yunan fəlsəfəsində də ailə mühüm yer tutur. Platon “Dövlət” dialoqunda ailə qurumunun təbiətini və onun cəmiyyətə təsirini müzakirə edir. Onun ideal dövlət modelində ailə münasibətlərinin müəyyən dərəcədə kollektivləşdirilməsi təklif olunsa da, ailəni sosial nizamın formalaşmasında əsas ünsürlərdən biri hesab edirdi. Platonun fikrincə, cəmiyyətin harmoniya içində yaşaması üçün ailə strukturunun düzgün qurulması və qorunması vacibdir.

Aristotel isə ailəyə daha təbii prizma ilə yanaşırdı. O, ailəni cəmiyyətin ilkin və təbii qurumu kimi qiymətləndirərək, bildirirdi ki, bu birlik yalnız gündəlik ehtiyacların ödənildiyi məkan deyil, həm də insanın əxlaqi və siyasi şüurunun formalaşdığı ilk mərhələdir. Aristotelə görə, dövlət ailələrin birləşməsindən yaranır və əgər ailələr möhkəm əxlaqi əsaslara söykənirsə, bütöv bir dövlətin sağlam təməlləri formalaşır.

Bu yanaşmanı Şərq fəlsəfəsində, xüsusilə Konfutsi təlimində də görürük. Konfutsi ailəni cəmiyyətin əsasını təşkil edən nüvə kimi görür və hesab edirdi ki, ailə daxilində formalaşan hörmət, səmimiyyət və məsuliyyət hissləri sonradan cəmiyyətə də sirayət edir. Yəni ailədə öyrənilən dəyərlər insanın sosial məsuliyyətini formalaşdırır.

Fəlsəfi məktəblərdən gətirilən nümunələrlə müqayisədə qədim türklərin yaşam tərzinə və yazılı abidələrinə nəzər saldıqda da ailənin cəmiyyət və dövlət həyatındakı əhəmiyyətini görmək mümkündür.

Orxon-Yenisey abidələri ailənin, soy-kökün və nəsil bağlarının müqəddəsliyini vurğulayır. Ailə burada sadəcə yaşayış vahidi deyil, dövlətçiliyin və idarəetmənin kiçik modeli kimi təqdim olunur. Ailə başçısının ədalətli və məsuliyyətli olması bütöv bir tayfanın rifahına birbaşa təsir edən amil sayılırdı.

Bütün bu fikirlər göstərir ki, türk ailə modeli yalnız bioloji və hüquqi bağlardan ibarət deyil. Bu modelin təməlində dərin tarixi, mənəvi və fəlsəfi qatlar dayanır. Ona görə də müasir türk cəmiyyətlərində ailənin funksiyalarını elmi əsaslarla tədqiq edərkən bu tarixi və mədəni təməlləri nəzərə almaq zəruridir.

### Türk dövlətlərində ailə modelləri

Müasir Türk dövlətlərində ailə modelləri ortaq mənəvi köklərə əsaslansa da, hər birində tarixi, siyasi və iqtisadi şəraitdən doğan fərqli xüsusiyyətlər mövcuddur. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanda ailə anlayışı ortaq dəyərlərlə formalaşsa da, hər biri bu dəyərləri özünəməxsus şəkildə yaşadır.

### Azərbaycan

“Ailə – hər bir xalqın, hər bir cəmiyyətin, hər bir dövlətin əsasını təşkil edən amildir. Ailənin möhkəm olması cəmiyyətin, dövlətin möhkəm olması deməkdir.” Bu dərin fikirlər ümummilli lider Heydər Əliyevin Azərbaycan ailəsinə verdiyi yüksək dəyəri ifadə edir. Ailədə formalaşan dəyərlər — hörmət, məsuliyyət, vətənpərvərlik və sevgi — gələcək nəsillərin formalaşmasında mühüm rol oynayır.

Azərbaycan ailəsi min illərin süzgəcindən keçmiş dəyərlərin, mənəvi bağların və qarşılıqlı hörmətin parlaq bir nümunəsidir. Burada ailə anlayışı həm ata mirası, həm də ana nəvazişi kimi qorunur.

Model bir tərəfdən sovet dövründən miras qalan sosial strukturu əks etdirir, digər tərəfdən isə İslam mənəviyyatı və türk-müsəlman ənənələrinin təsiri altındadır.

Azərbaycan ailəsi hələ də patriarxal çalarlarını saxlayır: ailənin dirəyi ata, ailə ocağının istiliyini isə ana qoruyur. Lakin müasir çağırışlar bu ənənəvi modelə yeni nəfəs gətirib. Qadın artıq elm, siyasət, mədəniyyət, səhiyyə kimi sahələrdə də öz yerini möhkəmləndirib.

Prezident İlham Əliyev deyir:

“Ailə dəyərləri bizim cəmiyyətimizin təməlidir. Azərbaycan xalqı hər zaman ailə dəyərlərinə, böyüyə hörmət, övlada qayğı prinsiplərinə sadiq olub və bu gün də bu ənənə qorunub saxlanılır.”

Birinci vitse-prezident Mehriban Əliyeva isə bildirir:

“Qadın həm ailənin dayağı, həm də cəmiyyətin fəal üzvüdür. Ailədə qadının rolu yalnız ana və həyat yoldaşı kimi deyil, həm də tərbiyəçi, dəyərlərin daşıyıcısı kimi dəyərləndirilməlidir.”

Azərbaycanın ailə siyasəti dövlət səviyyəsində möhkəm hüquqi baza ilə təmin edilir: Ailə Məcəlləsi, Gender Bərabərliyi və Uşaq hüquqları haqqında qanunlar, strateji fəaliyyət planları ailə institutunun qorunmasına xidmət edir. 2025-ci ildən gender bərabərliyi, atalıq məzuniyyəti, uşaqların iştirakı və hüquqlarının qorunması sahələrində yeni təşəbbüslər həyata keçirilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi regional mərkəzlər vasitəsilə əhali ilə birbaşa əlaqələr qurur, məişət zorakılığı, erkən nikah, gender bərabərsizliyi və uşaqların hüquqlarının pozulması kimi məsələlərdə mübarizə aparır. Dövlət ailəni yalnız sosial vahid deyil, milli inkişafın təməli kimi görür.

**(ardı var)**

***Vüsalə GÜLMALIYEVA,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun etika şöbəsinin elmi işçisi***

# Rəsul Rza ocağında mükafatlandırma

**Rəsul Rzanın Ev muzeyində AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə Xalq şairinin şərəfinə təsis edilmiş beynəlxalq ədəbi mükafat təqdim olunub. Muzeyin direktoru Fidan Rzayeva mərasimdə bildirib ki, yeni fəaliyyətə başlayan xatirə ocağı ilk addımını 2025-ci il Rəsul Rza mükafatının akademik İsa Həbibbəyliyə təqdim edilməsi ilə atır.**



Rəsul Rza Ədəbiyyat Ocağı İctimai Birliyinin sədri, Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov Xalq şairi barədə tədqiqatlarına görə builki Rəsul Rza mükafatının AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə verildiyini bildirib. Azərbaycan ədəbiyyatşünaslığını önəmli elmi-nəzəri araşdırmaları ilə zənginləşdirən akademik İsa Həbibbəylini təltif münasibətlə təbrik edən Rafael Hüseynov görkəmli alimin xalq şairləri Rəsul Rza və Nigar Rəfibəylinin və Xalq yazıçısı Anarın yaradıcılığı haqqında dəyərli əsərlərinin müəllifi olduğunu vurğulayıb. Milli Məclis sədrinin müavini Rəsul Rza mükafatını AMEA rəhbərinə təqdim edib.

Yazıçılar Birliyinin sədri, Anar akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının tədqiqində sanballı xidmətlərini qeyd edərək atası Rəsul Rza və anası Nigar Rəfibəyli barədə dəyərli elmi əsərlərinə görə məxsusi razılığını söyləyib.

Sonda AMEA prezidenti yüksək təltifə və yeni açılmış Rəsul Rza ocağında birinci mərasimdə mükafatlandırılmasına görə təşəkkürünü bildirib.

*T.AYDINOĞLU*
*XQ*

**Azərbaycan milli mətbuatı – 150**

# Anadilli mediamızın “Əkinçi”lik ənənələri

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ADA Universiteti və “Ədibin evi” Ədəbiyyata Dəstək Fondunun birgə təşkilatçılığı “Millət “Əkinçi”liyinin davam edən ənənələri” mövzusunda elmi sessiya keçirilib.**





Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunan elmi məclisi muzeyin direktoru, akademik Rafael Hüseynov açaraq zəngin tarixi, mütərəqqi və şanlı ənənələri olan Azərbaycan milli mətbuatının keçdiyi şərəfli yola nəzər salıb. Alim bildirib ki, 1875-ci ildə Həsən bəy Zərdabinin təşəbbüsü əsasında nəşrə başlayan “Əkinçi” qəzeti ilə əsası qoyulan milli mətbuatımız xalqımızın maariflənməsində, milli kimliyimizin formalaşmasında və dövlətçilik ideyalarının təbliğində mühüm rol oynayıb.

Azərbaycanın mətbuat tarixində önəmli yer tutan ədib və istiqlalçı publisistlərdən söz açan akademik onların “Əkinçi” yolunu davam etdirən qəzet və jurnalların səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərdiklərini söyləyib. O, vurğulayıb ki, müasir dövrdə mediamızın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli lider hakimiyyətdə olduğu hər iki dövrdə jurnalistikanın cəmiyyətdə yüksək rolunu təmin edib, milli medianın inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirib. Müstəqil medianın formalaşması və inkişafına xidmət edən həmin siyasəti bu gün Prezident İlham Əliyev uğurla davam etdirir.

Akademik ADA Universitetində tarixi qəzet-jurnalların transliterasiya və nəşr edilməsinin Azərbaycan milli mətbuatının 150 illiyinə dəyərli töhfə olduğunu söyləyib, bu nəşrləri milli media irsinin gələcək nəsillərə ötürülməsi baxımından qiymətli mənbə kimi səciyyələndirib, bu işdə əməyi olanlara təşəkkür edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev uzun müddət tarixi biliklərin əski əlifbada yazılması səbəbindən geniş kütləyə əlçatan olmadığını söyləyib. O, rəhbərlik etdiyi ali məktəbin təşəbbüsü ilə həyata keçirilən transliterasiya layihələrinin həm nəzəri, həm də tarixi baxımdan əhəmiyyətli olduğunu vurğulayıb.

“Ədibin evi”nin icraçı direktoru Şəfəq Mehrəliyeva, ictimai-siyasi sənədlər arxivi, beynəlxalq əməkdaşlıq, tərcümə və ictimai əlaqələr bölməsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayeva, tərcüməçi, filoloq, jurnalları transliterasiya edib çapa hazırlayan Azad Ağaoğlu ADA Universitetinin dəstəyi ilə nəşr olunan “Əfkari-mütəallimin” məktəbli (1919), “Babayi-Əmir” satirik (1915–1916) və “Məktəb” elmi-pedaqoji (1911–1920) jurnallarının mühüm tarixi məlumatları ehtiva edən əvəzsiz mənbə olduğunu söyləyiblər.

Sonda ADA Universitetinin dəstəyi ilə nəşr olunan “Əfkari-mütəallimin” məktəbli, “Babayi-Əmir” satirik və “Məktəb” elmi-pedaqoji jurnallarının latın qrafikası ilə nəşr edilmiş topluları təqdim edilib.

*T.RÜSTƏMLİ*
*XQ*

Azərbaycan milli mətbuatı – 150

# Naxçıvanın 1 əsrlik media salnaməsi

**1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin ana dilimizdə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə təməli qoyulan milli mətbuatımız bu il bir əsr yarımlıq yolunu tamamlayır. Yarandığı gündən maarifçilik ideyalarının tərənnümçüsü olmuş, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamış Azərbaycan mətbuatı tarixin bütün dövrlərində cəmiyyət həyatının güzgüsünə çevrilərək ictimai-siyasi, elmi-mədəni dünyagörüşün formalaşmasına öz təsirini göstərib. "Əkinçi" ilə başlanan mətbuat yolumuz sonrakı dövrlərdə bir çox mətbu orqanlarla davam etmiş, təkcə paytaxt Bakıda deyil, ölkəmizin digər bölgələrində də bədii fikrin inkişafında müsbət rol oynayıb.**

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynovla söhbətimizin əsas mövzusu qədim diyarda mətbuatın keçmişi və bugünü haqqındadır.

**– Rövşən müəllim, gəlin, ilk olaraq, Naxçıvanda mətbuatın tarixi inkişafına nəzər salaq.**

– Mütərəqqi ziyalı, təbiətşünas alim Həsən bəy Zərdabinin təşəbbüsü ilə nəşrə başlayan "Əkinçi" qəzeti ölkəmizdə maarifçilik ideyalarının carçısı kimi böyük bir yolun təməlini qoymuşdur. Naxçıvanda isə ilk qəzet nəşri ideyası XIX əsrin 90-cı illərində irəli sürülmüş, bununla bağlı yerli ziyalılar 1894-cü ildə Sankt-Peterburqa ərizə və məktublarla müraciət etmiş, lakin bu müraciətlərə müsbət cavab verilməmişdi. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra bu məsələ yenidən gündəmə gəlmiş, nəhayət, 1921-ci il noyabrın 9-da Naxçıvanda "Cavanlar həyatı" adlı ilk qəzet işıq üzü görmüşdü. Həmin il dekabr ayının sonundan 1922-ci ilin yanvarınadək qəzet "Füqara səsi", 1922-ci ilin aprelindən isə "Şərq qapısı" adı ilə nəşr olunmağa başlamışdı. O vaxtdan qəzet Naxçıvanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış, bölgə həyatında gedən proseslər, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, baş verən hadisələr haqqında operativ məlumatlar vermiş, ən mühüm xəbərləri əhaliyə çatdırmışdır.



İlk saylarından başlayaraq müntəzəm surətdə dərc edilən "Şərq qapısı" qəzeti region həyatının ictimai-siyasi və mədəni inkişafında mühüm rol oynayır. Sovet hakimiyyəti illərində kollektivləşmə siyasətinin həyata keçirilməsi məqsədilə muxtar respublikanın rayonlarında yeni qəzetlər yaranır. Belə ki, 1931-ci ildə Şərurda "Pambığa doğru", 1932-ci ildə Ordubadda "Ordubad fəhləsi", həmin ildə Əbrəqunusda "Zərbəçi heyvandar", Culfada "Bolşevik yolu", 1936-cı ildə Şahbuzda "Sosializm maldarlığı" qəzetləri dərc olunmağa başlayır. 1959-cu ildə Moskvada mərkəzi komitə tərəfindən "Qəzet və jurnalların zərərlə işləməsinə son qoymaq haqqında" qərar qəbul edilir. Bu qərardan sonra Naxçıvan Muxtar Respublikasının rayonlarında çıxan bütün qəzetlərin, o cümlədən – Şərur rayonunda (o zamankı İliç) "Noraşen kolxozçusu", Ordubad rayonunda "Ordubad işçisi", Culfa rayonunda "Sovet Culfası" və Şahbuz rayonunda "Sosializm maldarlığı" qəztlərinin nəşri dayandırılır. Bundan bir neçə il sonra, daha dəqiqi 1966-cı ilin yanvar ayından yeni qərarla "Yeni Ordubad" (Ordubad rayonu), "Zəfər" (Culfa rayonu), "Qabaqcıl" (Şahbuz rayonu) və "İşıqlı yol" (İliç – indiki Şərur rayonu) qəzetləri çıxmağa başlayır.

Bir məqamı da qeyd etmək istərdim ki, sovet hakmiyyəti illərində mətbuat üzərində sərt senzura olmasına baxmayaraq, təkcə "Şərq qapısı" qəzetində deyil, muxtar respublikanın rayon qəzetlərində də tez-tez xalqımızın dil, ədəbiyyat, mədəniyyət və xüsusilə də tarixinə həsr olunmuş, azərbaycançılıq ideologiyasına xidmət edən çoxlu yazılar dərc olunub. Ümumi götürdükdə, muxtar respublika mətbuatı ötən bir əsrlik dövrdə çox çətin, enişli-yoxuşlu bir yol keçib.

**– Xüsusilə də ötən əsrin 90-cı illərində Naxçıvan mətbuatı, digər sahələr kimi, böyük çətinliklərlə üz-üzə qalıb.**

– Bəli, həqiqətən, həmin dövrlər Naxçıvan çox böyük çətinliklərlə üz-üzə qalmışdı. Xalqımızın böyük oğlu, dahi siyasətçi Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdaraq burada yaşayıb fəaliyyət göstərdiyi dövrdə "Şərq qapısı" qəzeti regionun əsas tribunasına çevrilmiş, muxtar respublikanın informasiya blokadasının yarılmasında əsas rol oynamışdır. Bütün çətinliklərə baxmayaraq, məhz dahi şəxsiyyətin səyləri nəticəsində qəzet fəaliyyətini dayandırmamış, həmin illərin hər bir günü qəzetin səhifələrində tarixləşmişdir.

Bir məsələni də qeyd edim ki, "Şərq qapısı" qəzeti müstəqillik illərində əzmkarlıq nümayiş etdirmiş, əhalinin həmrəyliyə çağırışında, mürəkkəb ictimai-siyasi proseslərdən doğru nəticə çıxararaq düzgün istiqamətləndirilməsində, vətənpərvərlik ruhunun, sabaha inam hissinin aşılanmasında əvəssiz rol oynamışdır. Eyni zamanda, həmin dövrdə "Şərq qapısı" Bakıda qanlı 20 Yanvar hadisələri zamanı sovet imperiyasının iflic vəziyyətə saldığı ölkə mətbuatının Azərbaycan həqiqətlərini xalqa və dünya ictimaiyyətinə çatdırmaq missiyasını şərəf və ləyaqətlə yerinə yetirmişdir. Bundan əlavə, "Şərq qapısı" Azərbaycanın çoxsaylı mətbuat orqanları arasında ilk dəfə olaraq ölkəmizi düçar olduğu bəlalardan xilas etməyin yeganə yolunun görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtmasında görmüş və bu barədə müxtəlif yazılarla çıxış etmişdir. Həmçinin, Ulu öndərin rəhbərliyi altında milli dövlətçiliyimizin bərpası ilə bağlı Naxçıvan parlamentində qəbul edilən tarixi, siyasi qərarlar ilk olaraq məhz bu qəzetlə geniş oxucu kütləsinə, ölkə ictimaiyyətinə çatdırılmışdır.

**– Təbii ki, "Şərq qapısı" dövrün ictimai-siyasi proseslərində daim öndə gedən bir mətbuat orqanı olub. Bundan əlavə, qəzet, həm də muxtar respublikada ictimai, siyasi, mədəni fikrin formalaşmasında müstəsna rol oynayıb...**

– Bəli, doğrudur. Ümummilli liderimizin "Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. Qəzetiniz o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb" – sözləri bunu bir daha təsdiq edir. Mən çox sayda misallar çəkə bilərəm. Məsələn, "Şərq qapısı" qəzeti Naxçıvanda ədəbi mühitin fəaliyyətinin işıqlandırılmasına, şair və yazıçıların əsərlərinin dərc olunmasına, ictimaiyyətə tanıdılmasına da istiqamət vermiş, böyük bir ədəbi məktəb yaratmışdır. Görkəmli akademik İsa Həbibbəylinin təbirincə söyləsək, "Şərq qapısı" həm də regionun "Ədəbiyyat qəzeti" funksiyasını yerinə yetirmişdir.

**– Naxçıvan mətbuatının keçdiyi tarixi dövrlərin hər biri haqqında geniş danışmaq olar, amma ümumi olaraq, muxtar respublika mətbuatının dünəni və bu günü haqqında daha nələri qeyd etmək istərdiniz?**

– Ümumilikdə götürdükdə, muxtar respublika mətbuatı hər zaman regionda gedən proseslərin oxuculara düzgün çatdırılmasında əhəmiyyətli rol oynayıb. "Şərq qapısı" ilə bərabər, muxtar respublikamızın rayonlarında müxtəlif dövrlərdə həyata vəsiqə alan "Şərqin səhəri" (Babək rayonu), "Arazın səsi" (Culfa rayonu), "Nuh yurdu" (Naxçıvan şəhəri), "Şərurun səsi" (Şərur rayonu), "El həyatı" (Ordubad rayonu), "Yeni həyat" (Kəngərli rayonu), "Oğuz yurdu" (Sədərək rayonu), "Oğuz səsi" (Şahbuz rayonu) qəzetləri də fəaliyyətləri dövründə vahid ideologiyaya xidmət etmiş, dövlətimizin muxtar respublikada, onun ayrı-ayrı bölgələrində apardığı sosial-iqtisadi islahatların önündə dayanmış, onun tərəqqi və inkişafına işıq tutmuşdur.

Bilirsiniz ki, mətbuatımız nə qədər şərəfli yol keçsə də, uzun illər söz azadlığına qovuşmamışdır. Fəxrlə söyləyə bilərik ki, Azərbaycan jurnalistikası buna ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində nail olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Ulu öndərin dəst-xəttinə sadiq qalaraq bu sahəni dövlətimizin prioritet istiqamətinə çevirmiş, bir çox demokratik addımların atılmasına nail olmuşdur. Prezident İlham Əliyevin 25 aprel 2025-ci il tarixli sərəncamı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinin ölkəmizdə geniş qeyd olunmasının qərara alınması da bu sahənin daim dövlətimizin diqqət mərkəzində olduğunu göstərir.

Bütün bunların fonunda Naxçıvan Muxtar Respublikasında da mətbuatın fəaliyyəti üçün lazımi şərait yaradılıb. Bu il muxtar respublikanın aparıcı mətbu orqanı olan "Şərq qapısı" qəzetinin maddi-texniki bazası yenilənmiş, martın ayında burada İnformasiya Mərkəzi istifadəyə verilmişdir. Qəzet əməkdaşları üçün yaradılan bu cür münbit şərait mətbu orqanın davamlı inkişafına təminat verir. Bu cür qayğı qəzetin maddi-texniki imkanlarının genişləndirilməsi, jurnalistlərin peşəkar fəaliyyətinin dəstəklənməsi dövlətimizin mətbuata göstərdiyi qayğının bariz nümunəsidir.

Bununla yanaşı, artıq muxtar respublikada Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsi fəaliyyət göstərir. Bu regional idarə öz işini medianın inkişafını dəstəkləyən müasir və innovativ proqramların reallaşdırılmasına, jurnalistlərin peşəkarlığının artırılmasına xidmət etmək istiqamətində qurub. Bu tədbirlərdə bizim yerli media könüllüləri də fəal iştirak edir. Ümumilikdə götürsək, bu gün muxtar respublikada mətbuatın inkişafına böyük dövlət qayğısı var və mətbuat işçiləri də öz fəaliyyətlərini müasir dövrün tələbləri üzərində qurmağa çalışırlar. Yeri gəlmişkən, mən Azərbaycan mətbuatının qarşıdan gələn 150 illik yubileyi münasibətlə mətbuat nümayəndələrinin hər birini təbrik edir, fəaliyyətlərində uğurlar diləyirəm! Qoy, qələmləri həmişə saf amala, milli ideologiyamızın inkişafına xidmət etsin!

*Söhbəti apardı:*
***Səbuhi HƏSƏNOV***
***XQ***

# 70-ə yetişdi nəğməkar şair

**Vaxtilə Azərbaycan televiziyasında birlikdə çalışdığım Yusif Nəğməkarın 70 illik yubileyi ilə bağlı dəvətnamə alanda təəccübləndim ki, gənclik ruhunu, cavanlıq tövrünü, həyat eşqini qoruyub saxlayan şair bu zirvəyə nə tez yetişdi? Amma onu da düşündüm ki, "Gənclik" baş redaksiyasında işlədiyi dövrdən saf ürəkli qələm sahibi kimi tanıdığım Yusifin yaşının bu həddə çatmasının özü bir İlahi lütfüdür.**



Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda onun yubileyi münasibətilə çapdan çıxmış "Çağdaş poeziyamızın Nəğməkarı" adlı toplunun təqdimatı maraqlı keçdi. Məclisi açan akademik Nizami Cəfərov geniş təqdimata ehtiyacı olmayan şairin ömrü boyu hissiyyat dalğalarında üzməyə meyilli olmaqla bərabər, yetkin bir əqli düşüncə sahibi olduğunu əsaslandırdı. Yeni toplunu onun özünün özünə mükafatı sayaraq dedi ki, bu kitab, əslində, Azərbaycan ədəbiyyatı tarixinin böyük bir səhifəsidir. Ədəbi əsrin son onilliklərinin impulsu burda vurur. Çünki Yusif Nəğməkarın haqqında yazmış görkəmli qələm sahibləri pleyadası – Mirzə İbrahimov, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, İsa Həbibbəyli, Nizami Cəfərov, Vaqif Yusifli, Ramiz Rövşən və başqaları onun çoxşaxəli yaradıcılığını dəyərləndirməklə bərabər, həm də zamanın poetik mənzərəsini canlandırıblar.



AYB-nin katibi Elçin Hüseynbəyli yaradıcılıq təşkilatı adından yubilyara təbriklərini çatdırdı və qurumun sədri, Xalq yazıçısı Anarın imzaladığı diplomu ona təqdim etdi. "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri, söz dahisi Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli şairə ən xoş sözlərini ünvanladı.

Ədəbiyyatşünas alim Əsəd Cahangir çıxışını konkret faktlar üzərində quraraq bildirdi ki, Beyləqan rayonunun Birinci Aşıqlı kəndində dünyaya göz açan, gözəl şeirləri könülləri oxşayan şair Yusif Nəğməkarın sözü, səsi-avazı, barmaqlarının sehri ilə dilləndirdiyi sazı onun yaradıcılığını həm klassik ədəbiyyatla, həm də aşıq sənəti ilə bağrıbadaş edib. Elə çox sanballı epik-lirik-dramatik "Ələsgər zirvəsi" poeması bu vəhdətin nə qədər ucada olduğunu göstərir.

Təsadüfi deyil ki, neçə il əvvəl dillər əzbəri olan "Yanıq Kərəmi"yə oynama" şeiri də Yusif Nəğməkara məxsusdur:

**Hicran köhləninin yatıb yalına,**
**Ziyadxan oğlunun ağla halına,**
**Oyna bu dünyanın qeylü-qalına,**
**"Yanıq Kərəmi"yə oynama, qardaş.**

Mərasimin bu məqamında söz alan yubilyar şair "Ələsgər zirvəsi" poemasının Aşıq Ələsgərin "vəhdəti-vücud" fəlsəfəsi və saz-söz sənəti vasitəsilə insanlıq dəyərlərini tərənnüm etməsinə, yalnız bir şair və sənətkar kimi yox, həm də irfani və mistik bir şəxsiyyət kimi dəyərləndirilməsinə yönəlib. O, məhz klassik aşıq poeziyasının zirvəsi sayılan Dədə Ələsgərin "batini mənalar" üzərində qurulan möcüzəli yaradıcılığına vurğunluğu sayəsində hələ 4-cü sinifdə oxuyarkən ilk şeirini yazdığını xatırladı və "Ələsgərdir" rədifli şeirini səsləndirdi.

Təqdimat mərasimindəki digər çıxışlarda Yusif Nəğməkarın poeziyası hərtərəfli təhlil süzgəcindən keçirildi. Qeyd olundu ki, hələ 2015-ci ildə "Çanaqqala – Türkə qala" poemasına görə o, Çanaqqala zəfərinin 100 illiyi münasibətilə Türk dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının keçirdiyi ədəbi müsabiqənin qalibi adını qazanıb və "İlin şairi" elan olunub. Bundan əlavə, şair Rəsul Rza, Şahmar Əkbərzadə və Mikayıl Müşfiq adına ədəbi mükafatların qalibidir. Ötən il "Aşıq Ələsgər – 200" medalı ilə təltif edilib. Yusif Nəğməkarın "Vəslin edamı" poeması Birinci Qarabağ müharibəsinə həsr olunub. O, hazırda İkinci Qarabağ müharibəsində Zəfəri tərənnüm edən iri həcmli əsər üzərində çalışır.

Görüş iştirakçılarına ərməğan olunan "Çağdaş poeziyamızın Nəğməkarı" kitabına yubilyarın yazdığı "Ən ön ün"də belə fikirlər var: "Bu hesabat ayrı-ayrı müəlliflərin, ünlü ədəbiyyat adamlarının, media nümayəndələrinin, bütövlükdə, dəyərli ziyalılarımızın ayrı-ayrı vaxtlarda yaradıcılığım haqqında yürütdükləri fikir və mülahizələrin, araşdırma və təhlillərin əks-sədasıdır. Bir sözlə, obrazlı desək, kitabda məskunlaşmış irili-xırdalı bütün məqalələrin mətnləri qələm dostlarımın fəhmindəki məndən mənə yazdıqlarıdır".

İnanırıq ki, Yusif Nəğməkar bundan sonra da məhsuldar yaradıcılığını eyni ruhla davam etdirəcək və biz də onun yeni-yeni təqdimatlarının şahidi olacağıq.

***Əli NƏCƏFXANLI***
***XQ***

Fikrət Sadıq – 95

# Şirvan şair oğlunu yad etdi



**Şamaxı Rayon İcra Hakimiyyətinin və Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Şamaxı Rayon Mədəniyyət Mərkəzində şair, publisist, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Dövlət mükafatı laureatı Fikrət Sadığın anadan olmasının 95-ci ildönümü qeyd edilib.**

Tədbirdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov və şair-tərcüməçi Zahid Sarıtorpaq şairin həyat yolu və yaradıcılığından bəhs ediblər. Bir vaxtlar Şamaxıda kənd müəllimi olmuş Fikrət Sadığın sonra rayon qəzetində ədəbi işçi, ASE-də elmi redaktor, şöbə müdiri, "Azərbaycanfilm" kinostudiyasında baş redaktor, AYB-də bədii ədəbiyyatın təbliği bürosunun direktoru vəzifələrində çalışdığı, 1963-cü ildə çap olunmuş "Cığır" adlı şeirlər kitabı ilə özü üçün böyük ədəbiyyata cığır açdığı yada salınıb, yaradıcılıq məziyyətləri incələnib. Onun poeziyasının vətənpərvərlik motivləri, lakonizmi, incə yumor hissi ilə zəngin olması diqqətə çatdırılıb.

**Döyüşdə ölmədim deyəm,**
**Bayrağı örtün üstümə.**
**Üstündə son misram donmuş,**
**Varağı örtün üstümə.**

Mərhum şairin övladları – mədəniyyət nazirinin müşaviri, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu və AYB üzvü Aysel Fikrət ataları ilə bağlı xatirələrini bölüşüblər.

Gecədə Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin "Eşq" ansamblı və Əməkdar mədəniyyət işçisi Aşıq Ağamurad İsrafilovun ifasında şairin sözlərinə bəstələnmiş mahnılar səsləndirilib.

***İlqar HƏSƏNOV***
***XQ-nin bölgə müxbiri***

# IDEA-nın Bilgəhdə təmizlik aksiyası



**İyunun 11-də IDEA İctimai Birliyinin təşəbbüsü ilə dəniz mövsümünün başlanması ərəfəsində Bilgəh qəsəbəsində yerləşən ictimai çimərlikdə sahilyanı təmizlik aksiyası təşkil olunub.**

IDEA-dan verilən məlumata görə, "Sahillər təmiz qalsın!" şüarı altında keçirilən aksiyada 50 IDEA könüllüsü iştirak edib. Aksiya zamanı 2 tona yaxın tullantı toplanaraq Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilib.

Aksiyanın əsas məqsədi vətəndaşlar arasında sahilyanı ərazilərdə təmizlik qaydalarına əməl olunmasını təşviq etmək, dənizkənarı ərazilərin məişət tullantıları ilə çirkləndirilməsinin qarşısını almaq və ictimaiyyəti Xəzər dənizi və ətraf mühitin mühafizəsi istiqamətində səfərbər etməkdir.

Qeyd edək ki, Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş müntəzəm tədbirlər təşkil edir.

IDEA İctimai Birliyi dəniz mövsümünün başlanması ərəfəsində vətəndaşları çimərliklərdə istirahət edərkən ətraf mühitin mühafizəsinə həssas yanaşmağa, sahilləri təmiz saxlamağa, tullantıları ətrafa atmamaqla məsuliyyətli davranış sərgiləməyə və yaranmış tullantıları özü ilə aparmağa çağırır.

# Leyla Əliyeva ÜST-nin iclasında videoformatda iştirak edib




**İyunun 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İslandiyanın paytaxtı Reykyavikdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin təşəbbüsü ilə keçirilən İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının açılış iclasında və ilk hibrid dinləməsində videobağlantı vasitəsilə iştirak və çıxış edib.**



Leyla Əliyeva çıxışı zamanı COP29-un ev sahibi Azərbaycanın bu sahədə atdığı addımlar, qazandığı təcrübə və həyata keçirdiyi təşəbbüslər barədə məlumat verib. Bildirib ki, iqlim dəyişikliyi təkcə ekoloji deyil, eyni zamanda, ictimai sağlamlıq baxımından da ciddi qlobal çağırışlardan biridir. O, ölkəmizdə su ehtiyatlarının idarə olunması, ətraf mühitin mühafizəsi və iqlimə davamlılıq üzrə reallaşdırılan layihələrdən bəhs edib.

Leyla Əliyeva, həmçinin IDEA İctimai Birliyi tərəfindən irəli sürülən müxtəlif təşəbbüslərlə gənclərin iqlim və sağlamlıq mövzularında fəallığının artırılmasının vacibliyini qeyd edib və beynəlxalq təşkilatları bu istiqamətdə geniş əməkdaşlığa çağırıb.

Sonra tədbirdə çıxış edən ÜST-nin Avropa üzrə regional direktoru Hans Kluge Azərbaycanın COP29 çərçivəsində göstərdiyi liderliyi və təşəbbüskarlığı yüksək qiymətləndirdiklərini bildirib. O vurğulayıb ki, Azərbaycan yalnız regionda deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə fəal mövqe tutur və nümunəvi yanaşmalar nümayiş etdirir. Hans Kluge, həmçinin iqlim dəyişikliyi və ictimai sağlamlıq sahələrində həyata keçirilən layihələrə verdiyi töhfələrə görə Leyla Əliyevaya təşəkkürünü ifadə edib.

Qeyd edək ki, ÜST-nin Avropa üzrə Regional Ofisi tərəfindən yaradılan İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının məqsədi iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərini diqqət mərkəzinə gətirmək, sahələrarası əməkdaşlığı gücləndirmək və bu istiqamətdə konkret fəaliyyət mexanizmləri formalaşdırmaqdır. Reykyavikdə keçirilən rəsmi açılış iclası ilə Komissiya öz fəaliyyətinə rəsmən start verib.

*XQ*

XQ-nin qonaqları

# Türkiyəli jurnalistlər Azərbaycan turizminə dəstək verirlər



**Türkiyədən Azərbaycana qədəm basan hər bir qonaq, ziyarətçi cəmiyyətdəki mövqeyi və imkanlarından asılı olmayaraq, səviyyəsi hər zaman bizə doğma və əzizdir. Axı biz bir millətin iki dövlətinin, dost və qardaş ölkələrin vətəndaşlarıyıq. Bu ortaq düşüncə və səmimi hisslər hər iki xalqa mənəvi qüvvət verir, öyünc doğurur.**

Türkiyyəli bacı və qardaşlarımız haqlı olaraq Azərbaycanda özlərini evlərində olduğu kimi hiss edirlər. Bunu onların qəlblərindən dilərinə axan, sonsuz bir sevgi və ərk ilə söylədikləri sözlər aydın ifadə edir: “Biz Vətəndən Vətənə gəlmişik”.

Hər zaman xoş gəliblər, gözümüz üstə yerləri var. Həqiqətən, bu gün dünyada azərbaycanlılar və türklər qədər bir-birlərinə bu qədər yaxın və doğma olan ikinci bir millət tapmaq qeyri-mümkündür. Bu qardaşlığı zinətləndirən dostluq əsrlərin çətin sınaqlarından keçərək, bugünkü nəsillərə qiymətli bir ərməğan kimi yetişib.

“Xalq qəzeti” redaksiyasına Türkiyədən qonaqların gəldiyini eşidəndə, təbii ki, bütün kollektivimiz çox sevindi. Biləndə ki, müsafirlərimiz həm də həmkarlarımızdır, tanınmış qələm əhlidirlər, maraq və həyəcanımız bir qədər də artdı. Baş redaktor Əflatun Amaşovun təklifi ilə qonaqlarla söhbətləşib qəzetimiz üçün yazı hazırlamaq şansı isə məni əlavə duyğulandırdı. Qəlbimi bürüyən sevgi ilə onlarla ünsiyyət qurmağa çalışdım.

Simasından, davranışından kübarlıq yağan, istedadlı jurnalist qonağımız Mövlud Yeni Türkiyə Qəzetçiləri Konfederasiyası rəhbərinin beynəlxalq əlaqələr ürzrə yardımçısıdır. 40 ilə yaxın davam edən qaynar yaradıcılıq fəaliyyətinin çox hissəsini “Tərcüman”, “Axşam”, “Sabah” kimi nüfuzlu qəzetlərin redaksiyalarında keçirib. Hazırda Türkiyədə kifayət qədər populyar olan “mygazete.com” saytının sahibidir. Digər qonağımız isə turizm mövzusunda tanınmış qəzetçisi, “turizmday.com” saytının sahibi Emin Demirdir.

Xatırladaq ki, hər iki qonaq bu dəfə ölkəmizə “Qafqaz City Hotel və Qafqaz Sahil Oteli” rəsmisi, Azərbaycan və Turan sevdalısı Xəlil bəy Durunun təşəbbüsü ilə gəliblər. Qonaqların sözlərinə görə, budəfəki gəlişlərinin səbəbi özlərinin Türkiyə mediasındakı işgüzar əlaqələrini, eləcə də bilik və bacarıqlarını səfərbər edərək “can Azərbaycanda turizmin inkişafına media dəstəyi verməkdir”:

– Axı turizm sektoru bu gün neft qədər gəlirli, həm də də ekoloji cəhətdən zərərsiz, yəni “bacasız istehsal sahəsi olmaqla”, sevimli ölkələrimizin iqtisadiyyatının inkişafına əlavə dinamizm və sanballı maliyyə faydaları gətirmək gücünə malikdir.

**Mövlud bəyin bu sözlərindən sonra Emin bəy, öz növbəsində söylədi ki**, bir halda ki, hədəf bəllidir, niyyətimiz xeyirxah məqsədlərə xidmət edir və real imkanlara söykənir. Niyə bu sahədə qüvvələrimizi birləşdirib layiqli uğur qazanmayaq: “Lakin belə bir amili də unutmaq olmaz ki, çağdaş dünyada bütün sahələrdə, eləcə də turizm sektorunda rəqabət çox güclüdür. Bu istiqamətdə yeni yaranmış fürsətləri qaçırmaq zərər gətirər. Biz əl-ələ verib zamanın çağırışlarını qarşılamağı bacarmalıyıq”.

Bu fikirlərdən sonra qonaqlar yaddaşlarında əzbər saxladıqları önəmli rəqəmləri dilə gətirdilər. Məlum oldu ki, bu ilin 5 ayı ərzində Türkiyədən Azərbyaycana cəmi 175 min turist səfər edib. Düzdür, ötən dövrlərə nisbətən bu istiqamətdə artım müşahidə olunur, lakin bu göstərici mövcud potensialla müqayisədə çox aşağıdır. Daha böyük irəliləyişə nail olmaq isə mümkün və vacibdir.

Qonaqlar onu da vurğuladılar ki, son illər bir çox Avropa İttifaqı dövlətləri türkiyəli turistlərin bu ölkələri ziyarət etmələri üçün süni əngəllər yaradırlar. Bu, vizalardan tutmuş, bürokratik maneələrlə müşayiət olunan digər süni əngəlliklərdə də özünü göstərir. Amma türk vətəndaşlarının qardaş Azərbaycana səfər etmələri üçün heç bir maneə yoxdur və ola da bilməz.

**Bu məqamda Mövlud bəy dərin inam hissi ilə dedi:**

– Azərbaycana tezliklə dünyanın hər yerindən böyük turizm axını gözlənilir. 85 milyon əhalisi olan Türkiyədən nədən qardaş ölkəyə hər il azı 1 milyondan çox turist gəlməsin?! Niyə türk ziyarətçilər gözəl və bənzərsiz Şuşanın təmiz havasından udub, saf suyundan içməsinlər? Nə üçün Xəzərin “cənub mirvarisi” Lənkəranın, “şimal gözəli” Qubanın məğrur dağları kimi qürurlu insanları ilə ünsiyyətdə olmasınlar? Nədən dünyanın ən ləziz mətbəxləri ilə yarışmaq gücündə olan Şəki nemətlərinin ləzzətini damaqlarında hiss etməsinlər?! Hansı turist Zaqatalanın bərəkətli vadilərində becərilən qızılgüllərin ətrindən doya bilər?! Bəli, Azərbaycan başda-başa gözəlliklər diyarıdır! Bu gözəl yurdu böyük sevgisiz təsvir və təsəvvür etmək sadəcə mümkünsüz...

Türkiyəli yazarları məmnun edən digər bir məqam isə budur ki, son illər Azərbaycan dövləti turizmin hərtərəfli inkişafını birmənalı olaraq dəstəkləyir. Təqdirəlayiq haldır ki, bu sahədə iri layihələrin icra olunmasına start verilib. Bu isə ümid verir ki, yaxın illər ərzində, ölkədə həm otellərin, həm də “mehmanxana odaları”nın sayı kəskin artacaq. Bu sahədə zəruri infrastruktur ilə yanaşı, xidmət səviyyəsi də yüksələcək.

Türkiyəli həmkarlarımız isə ölkəmizin böyük turizm imkanlarını təbliğ və təşviq etmək, marketinq ilə bağlı məsələləri həll etmək, eləcə də media dəstəyi göstərməyə hazırdırlar. Geniş izləyici auditoriyası olan sosial şəbəkəni, internet televiziya kanallarını bu xeyirxah missiyanın həllinə yönəltmək olar və lazımdır. Bununla bərabər, qonaqlar belə bir narahatlıqlarını da təəssüflə dilə gətirdilər ki, son vaxtlar sosial şəbəkələrdə Türkiyə–Azərbaycan dostluğuna xələl gətirməyə çalışan qüvvələr fəallaşıblar.

Bu məqamda söhbətdə iştirak edən, hər iki türkiyəli jurnalisti yaxından tanıyan, onlarla birlikdə Qarabağda işğaldan azad edilmiş ərazilərimizi ziyarət edən tanınmış jurnalist və vətəndaş cəmiyyəti fəalı, Beynəlxalq Mətbuat İnstitutunun Azərbaycan Milli Komitəsinin rəhbəri, BAMF prezidenti Umud Rəhimoğlu əminliklə dedi ki, qoy sosial şəbəkələrdə “qara piar”la məşğul olanlar bədnam əməllərindən əl çəksinlər. Bədxahlarımız heç vaxt Azərbaycan və Türkiyə dövlətləri və xalqlarının əbədi dostluğu və qardaşlığına kölgə sala bilməzlər!

***Məsaim ABDULLAYEV***
***XQ***

Rəşid Behbudov – 110

# Dünyanı dolaşan səsin xatirə ocağı

**İfaçılıqda xalq yaradıcılığını, vokal sənətini, estrada janrını sintez edən Rəşid Behbudov bənzərsiz səsi, zahiri görkəmi və aktyorluq istedadı ilə dinləyicinin və tamaşaçının qəlbini ovsunlayan ifaçılardan idi. “Alagöz”, “Gecələr”, “Lalələr”, “Sənə də qalmaz”, “Küçələrə su səpmişəm” kimi dəyərli mahnıların ifaçısı olmuş bu dahi sənətkarın şəffaf, bulaq suyu kimi axıcı səsini unutmaq mümkün deyil. Bu səs illər uzunu öz sehri, cazibəsi ilə təkcə sahibinə deyil, həm də onun mənsub olduğu millətə, xalqa, məmləkətə daim şöhrət gətirərək tükənməz məhəbbət qazandırıb.**



Bu günlərdə unudulmaz maestronun adını daşıyan Dövlət Mahnı Teatrında dünya şöhrətli müğənni, SSRİ Xalq artisti Rəşid Behbudovun anım günü münasibətilə sənətkarın xatirə otağının açılışı oldu. Dəyərli sənətkara məxsus əşyaların sərgiləndiyi bu otaqda xatirələr sanki dil açıb danışır, dahi musiqiçi haqqında zəngin məlumat verir. Rəşid Behbudovun ev şəraitində səsini yazmaq üçün istifadə etdiyi mikrafon, hər zaman yanında gəzdirdiyi əl radiosu, konsertdən əvvəl səsini tənzimləmək üçün istifadə etdiyi aparat, müxtəlif dövrlərdə sənətkara təqdim olunmuş diplomlar, təltifnamələr və digər dəyərli əşyalar bura gələn qonaqlar onun haqqında dərin təsəvvür yaradır.

xüsusiyyətlərini əks etdirir. İş kabinetində istifadə etdiyi masaüstü saatı və mərmərdən hazırlanmış qələm dahi sənətkarın şəxsi iş masasında istifadə etdiyi dəyərli əşyalardandır. Bu əşyalar sənətkarın daxili zövqünü və dövrünün estetik üslubunu əks etdirir. Qələm Moldova Sovet Sosialist Respublikası tərəfindən bu ölkəyə səyahəti zamanı dahi sənətkara xatirə hədiyyəsi olaraq təqdim edilmişdir.

Rəşid Behbudov yaradıcılığında hər zaman Şərq musiqi motivlərinə xüsusi yer verilib. Bu da onun Şərq alətlərinə olan sevgisini göstərir.

Meksikada ona hədiyyə olunmuş Marakas (Latın Amerikası Musiqisində istifadə olunur) zərb alətləri, rəqs şalı olduqca maraqlı eksponatlardır. Onların içərisindəki xırda daş və muncuqların səsi ifa zamanı musiqiyə ritmik ahəng və yüksək dinamika bəxş edir. Bu eksponat Rəşid Behbudovun beynəlxalq səfərləri zamanı əldə etdiyi və sənət dostları tərəfindən dəyərli hədiyyə kimi təqdim edilmiş nadir nümunələrdən biridir. Müxtəlif illərdə çəkildiyi filmlərdən kadrlar, vaxtilə özünün musiqilərini ifa etdiyi fortepiano aləti və başqa xatirə əşyaları otağa xüsusi gözəllik verir.



Şəxsi əşyaları arasında Rəşid Behbudovun səs diapazonu üçün yazılmış “Aman ovçu” mahnısının not yazısı, müxtəlif konsertlər və qostrol səfərlərində geyindiyi kostyum və ayaqqabıları, xarici ölkələrə səyahəti zamanı sənətkara verilən dəyərli hədiyyələr, çəkdirdiyi fotolar da yer alır.

Dünyanın müxtəlif ölkələrinə səfərləri zamanı ona verilən dəyərli xatirə hədiyyələri xüsusi diqqət çəkir. Bunlardan biri də Pakistan musiqi alətidir. Bu nadir milli musiqi aləti 1983-cü ildə Pakistan Mədəniyyət, İdman və Turizm Nazirliyi tərəfindən Rəşid Behbudova dostluq və mədəni əməkdaşlıq nişanəsi olaraq təqdim edilmişdir. Əl işi olan bu alət Pakistan xalqının zəngin musiqi ənənələrini və milli irsini əks etdirir. Əsər iki ölkə arasında mədəni körpü rolunu oynayır.

Bambukdan toxunmuş ənənəvi Çin şlyapası isə 1952-ci ildə Çin Xalq Respublikasına edilən rəsmi səfəri zamanı təqdim edilmişdir. Üzərində əllə yazılmış Çin heroqlifləri həmin dövrün fəlsəfi və mədəni mesajlarını daşıyır, bu da əşyanın həm sənət, həm də simvolik dəyərini artırır. Bu hədiyyə mədəni diplomatiyanın incə təcəssümü kimi iki ölkə arasında hörmət və əməkdaşlığı simvolizə edir.

Otağın bir küncündə qoyulmuş divar stendində sənətkarın adını daşıyan gəmi maketi də sərgilənir. 5 min ton yük daşıma gücü olan bu dəniz nəhənginin maketi XX əsrin su nəqliyyatı sahəsində mühəndislik nailiyyətlərini və o dövrün gəmiqayırma

Milli musiqi xəzinəmizin, eləcə də Azərbaycan bəstəkarlarının əsərlərinin ölkə hüdudlarından kənarda populyarlıq qazanması məhz Rəşid Behbudovun ifası sayəsində mümkün olub. Tofiq Quliyev, Fikrət Əmirov, Səid Rüstəmov, Vasif Adıgözəlov, Qara Qarayev, Arif Məlikov və digər görkəmli bəstəkarlarımızın yaradıcılığını onsuz təsəvvür etmək mümkün deyil.

Xalqını sonsuz məhəbbətlə sevən sənətkar sovet respublikaları ilə yanaşı, Argentina, Bolqarıstan, Belçika, Çili, Çin, Efiopiya, Finlandiya, Hindistan, İran, İraq, İtaliya, Misir, Türkiyə və digər ölkələrdə geniş konsert proqramları ilə Azərbaycan xalq mahnılarının və bəstəkar əsərlərinin populyarlaşmasında çox böyük rol oynayıb. Yaradıcılığı sərhəd tanımayan Rəşid Behbudovun ifa etdiyi hər mahnı, yaratdığı hər obraz sənət hadisəsinə çevrilib, sənətkar dəfələrlə dövrünün ən yüksək mükafatlarına layiq görülüb.

***Fidan SALMANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 120 (30814) 13 iyun 2025-ci il, cümə

## İdman

### III MDB Oyunları: 246 dəst medal

**Azərbaycanda keçiriləcək III MDB Oyunlarında 23 idman növü üzrə 246 medal dəsti uğrunda mübarizə aparılacaq. Ən çox medal dəsti (40) üzgüçülük üzrə olacaq. Komanda idman növlərində – futbol, voleybol, 3x3 basketbol və çövkən üzrə də qaliblər və ən dəyərli oyunçular (MVP) müəyyənləşəcək.**




Yarışlar 12 idman məkanında keçiriləcək. Qeyd edək ki, III MDB Oyunları 2025-ci il 28 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycanın 7 şəhərində – Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Ümumilikdə, oyunlarda MDB-yə üzv və dəvət edilmiş ölkələrin idmançı və rəsmi nümayəndələrinin iştirakı gözlənilir.

### 180 oyunda 1533 tamaşaçı

**Misli Premyer Liqasının 2024/2025 mövsümünün matçlarını 275 min 933 tamaşaçı izləyib. Peşəkar Futbol Liqasının rəsmi saytınını məlumatına görə, 180 oyunda orta tamaşaçı sayı 1533-ə bərabər olub.**



Ev görüşlərindəki izləyici sayında “Turan Tovuz” hamını qabaqlayıb. Qərb təmsilçisi mövsüm ərzində 78500, orta hesabla hər oyunda 4361 tərəfdar toplayıb.

“Turan Tovuz” ikinci yerdən təxminən iki dəfə öndədir. Tamaşaçı sayında “Neftçi” ikinci, “Sumqayıt” üçüncü pillədə qərarlaşıb.

### Cüdo hakimimiz Dünya çempionatında

**Cüdo tarixində ilk dəfə azərbaycanlı hakim böyüklər arasında Dünya çempionatına dəvət alıb. Bu barədə Azərbaycan Cüdo Federasiyası məlumat yayıb.**



Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək mundialda ACF-nin hakimlər heyətinin üzvü, A kateqoriyalı beynəlxalq dərəcəli referi Nazim Umbayev ədalət təmsilçiləri arasında yer alacaq.

Qeyd edək ki, Dünya çempionatı iyunun 13-20-si aralığında baş tutacaq.

*M.HACIXANLI*
*XQ*

## Bu gün hava isti olacaq...

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək.**



**Havanın temperaturu gecə 20-22° isti, gündüz 26-30° isti olacaq.**

**Atmosfer təzyiqi 759 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 50-55 faiz olacaq.**

**Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman. Mülayim şərq küləyi əsəcək.**

**Havanın temperaturu gecə 18-23° isti, gündüz 32-37° isti, dağlarda gecə 10-15° isti, gündüz 20-25° isti olacaq.**

**Q.QASIMOV**
**XQ**

İdrakın kodları

# Yaradılışın başlanğıcı nə idi?

**Oğuz ARİF**

### I yazı

**İnsan kainatın sirlərinə yaxınlaşdıqca suallar azalmaq əvəzinə, daha da dərinləşir. Maddi aləmin, həyatın, idrakın yaranışına dair minlərlə nəzəriyyə olsa da, onların arxasında duran əsas sual hələ də öz yerindədir:**

#### Başlanğıcda nə var idi?

Bu suala cavab axtarışı insanlığın əbədiyyət boyu davam edən daxili səfəridir. Maddəmi ilkin idi, yoxsa sözmü? Əsrlərlə bu sual ətrafında iki mövqedə düşünənlər formalaşıb. Materialistlər deyirlər ki, maddə həmişə var idi. Onun öz-özünə inkişafı nəticəsində canlı həyat və idrak formalaşdı. Metafizik yanaşma isə bildirir ki, maddə öz-özünə var ola bilməzdi. Onun arxasında niyyət, mənəvi başlanğıc, "söz" dayanmalı idi.

#### İlahi mənbələr: Başlanğıcda Söz var idi

Xristian ilahiyyatının məşhur ifadəsi belədir: “Başlanğıcda Söz var idi. Söz Tanrının yanında idi və Söz Tanrı idi” (Yəhya 1:1). İslamda isə Quranın "kəlamullah" olması – Allahın sözü olması anlayışı da eyni ideyanı ehtiva edir: Yaradılış sözlə başlanıb. Burada Söz – kosmik kod, ilahi proqram, başlanğıc enerjidir.

#### Kvant və informasiya fizikası: Kainat kodlaşdırılıb

Müasir elmdə bəzi tədqiqatçılar belə hesab edirlər: Təbiətin bütün qanunları, əslində, informasiya kodları əsasında işləyir. Atomlar, zərrəciklər, cazibə, elektromaqnetizm – bunların hamısı riayət edilən, universal kodlaşdırılmış qaydalardır. Genetik kod da eyni prinsipin həyat formasıdır. Bu yanaşmaya görə, “söz” – informasiya, kod – kainatın özüdür.

#### Söz və maddə sintezi

Əgər kainatın başlanğıcında yalnız maddə olsaydı, o xaotik enerjidən ibarət olardı. Əgər yalnız söz olsaydı, o zaman heç bir fiziki forma meydana gəlməzdi. Bəlkə də yaradılışın ən böyük sirri bundadır: Söz maddəyə çevrildi. Maddə isə yenidən sözü daşıyan idraka yol açdı.

Yəni: Maddə Sözsüz mənasızdır. Söz Maddəsiz təcəssüm olunmaz.




#### İnsanın daxili kodu: sözlə düşünmək

İnsan təbiətdə sözlə düşünə bilən yeganə varlıqdır. Onun şüuru, dili, fikri, ədəbiyyatı – hamısı "sözün kodunun" davamıdır. Ədəbiyyat, fəlsəfə, sənət – insanın yaradılışdakı kodu anlamağa və daşımağa cəhdidir. Hər bir kitab, hər bir fikir parçası bəşəriyyətin ilkin “Sözə” qayıdış cəhdidir.

#### Sözsüz kainatın mənası itər

Maddə sonsuz ola bilər. Amma söz yoxdursa, kainat öz mənasını itirir.

Söz: Düşüncənin nüvəsidir, mənanın mənbəyidir, idrakın nəfəsidir.

#### Son

Kainat hələ də bizə pıçıldayır: “Mənə toxunanlar, mənə Sözlə yaxınlaşın. Çünki mən var olmuşam, çünki Söz var idi.”

Bəlkə də, yaradılışın kodlarının açarı da bu sadə həqiqətdə gizlidir: Söz həyatın nəfəsi, varlığın ilkin işığıdır.

# MOK-da qanvermə aksiyası

**Dünən “14 İyun – Beynəlxalq Qan Donorluğu Günü” münasibətilə Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında kütləvi qanvermə aksiyası təşkil olundu. Aksiya Milli Olimpiya Komitəsinin dəstəyi, Səhiyyə Nazirliyinin Respublika Qan Bankı və Azərbaycan Qan Donorluğunun İnkişafı Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutdu.**

“Həmrəy olaq, Qanımızla yaşadaq” adlı qanvermə aksiyası zamanı qan verən şəxslərə tam gigiyenik şəraitdə tibbi xidmət göstərildi. Aksiya talassemiyadan əziyyət çəkən uşaqlara dəstək məqsədilə keçirildi.



Tədbirdə MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə, Zemfira Meftaxetdinova, Fərid Mansurov, baş katib Azər Əliyev, MOK-un digər əməkdaşları, Olimpiya çempionları və idman ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Aksiyası çərçivəsində donorlar həkim nəzarətindən keçdilər, onlara təşəkkür və maarifləndirici materiallar təqdim olundu. Qan donorluğunun fəlsəfəsi insanın insana kömək etməsinə, təmənnasız yardım göstərməsinə və cəmiyyətin mənəvi bütövlüyünə əsaslanır. “Bir damla – bir həyat” prinsipi əsasında formalaşan bu anlayış Azərbaycan cəmiyyətində qədimdən bəri mövcud olan mərhəmət və fədakarlıq kimi ali dəyərlərlə səsləşir.



Hər bir vətəndaşın qan verməsi, həyatla ölüm arasında çarpışan bir insan üçün yeni bir ümid, yeni bir nəfəs deməkdir. Bu mənada qan donorluğu insan həyatının qorunması uğrunda fədakarlıq nümunəsi olmaqla yanaşı, həm də cəmiyyətin mənəvi dayanıqlığını möhkəmləndirən amillərdən biridir.

Beynəlxalq Qan Donorluğu Gününə həsr olunmuş bu cür tədbirlər, eyni zamanda, vətəndaş həmrəyliyinin və milli birlik duyğusunun gücləndirilməsində mühüm rol oynayır. Bu fakt bir daha sübut edir ki, Azərbaycanda insan həyatının qorunması, tibbi xidmətlərin təkmilləşdirilməsi və vətəndaş məsuliyyətinin artırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Ümumiyyətlə, Azərbaycanda qan donorluğuna dövlət səviyyəsində xüsusi diqqət göstərilir. Son illərdə həyata keçirilən islahatlar, Səhiyyə Nazirliyinin təşəbbüsləri və ictimai təşkilatların iştirakı ilə keçirilən maarifləndirici tədbirlər nəticəsində könüllü donorluq mədəniyyəti daha da inkişaf etmişdir. Bu, bir tərəfdən əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasına xidmət edir, digər tərəfdən isə humanizm və vətəndaş məsuliyyəti kimi ali dəyərlərin cəmiyyətdə təşviqinə səbəb olur.



Beynəlxalq Qan Donorluğu Günü Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə hər il 14 iyun tarixində qeyd olunur. Bu gün 1818-ci ildə ilk uğurlu qan köçürməsi əməliyyatını həyata keçirmiş həkim Karl Landşteynerin doğum günü ilə əlaqələndirilmişdir. Həmçinin bu gün könüllü qan donorlarına təşəkkür etmək və təhlükəsiz qan təminatının vacibliyini bir daha cəmiyyətin diqqətinə çatdırmaq məqsədi daşıyır.

*Səbuhi MƏMMƏDOV,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

## “Bus” zolağında minmə-düşmə icazəsi



**Avtobus zolaqları paytaxtın bir çox yerlərində şəhərdaxili avtobusların maneəsiz hərəkətinə şərait yaratsa da, taksilər və minik avtomobilləri üçün sərnişinləri mindirib-düşürməklə bağlı müəyyən çətinlik yaradırdı. Artıq bu problem də aradan qaldırıldı və avtobus zolaqlarında minmə-düşmə məntəqəsi yaradıldı.**

*XQ*

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*“Microsoft” lisenziyalarının satın alınması üçün*

**AÇIQ TENDER ELAN EDİR**

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin “Microsoft” lisenziyalarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu. qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 1 iyul 2025-ci il saat 14.00-dəkdir .

Prosedur üzrə əlaqələndirici şəxs - Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

## BİLDİRİŞ

“Bakı Toxucu” QSC-nin 2024-cü il üzrə maliyyə hesabatlarını Azərbaycan Respublikası Auditorlar Palatasının 22 /12/2021-ci il tarixli SA/065 nömrəli icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov aparmışdır. Auditin nəticəsi 2025-ci il iyunun 3-də müsbət audit rəyi ilə rəsmiləşdirilmişdir.

*“Bakı-Toxucu” QSC*

## ALLAH RƏHMƏT ELƏSİN

Pirallahı rayonundan Vasif İmanov Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Pirallahı rayonundan Vasif İmanov Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova anası

**HƏVVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3692
SİFARİŞ 1202
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00